**RƏŞİD GÖYÜŞOV**

# QARABAĞIN KEÇMİŞİNƏ SƏYAHƏT

PREZİDENT KİTABXANASI

**AZƏRBAYCAN DÖVLƏT NƏŞRİYYATI**
**BAKI – 1993**

**BBK 902. 6**
**G 76**

**Redaktoru:** *Tofiq Babayev*
**Rəssamı:** *Fədlun Əfəndi*

**Göyüşov R.**
G 76 Qarabağın keçmişinə səyahət. B.: Azərnəşr. 1993. 83 səh.

Qarabağ dünyada ən qədim insan düşərgələrindən olan Azıx mağarası, Yaxın və Orta Şərqdə məşhur Kür—Araz arxeoloji mədəniyyəti, Qafqazda ilk şəhər nümunəsi olan Üzərliktəpə, Kovurqala abidələri Şərqin Bağdadı, «Arranın anası» Bərdə, türkdilli xalqların mə'nəvi rəmzi sayılan möhtəşəm daş bütlər, Ağoğlan, Xəzinədağ mə'bədləri və digər abidələrlə zəngindir. Əsərdə bu abidələr, eləcə də Qarabağın qədim adları və əhalisinin etnik tarixi haqqında mə'lumat verilir.

**K 0505000000 / M – 651 (07) – 93 11 – 93** **ББК 902.6**

**ISBN 5-552-01214-3**

© Azərnəşr, 1993.

**MÜNDƏRİCAT**

MÜƏLLİFDƏN

QARABAĞIN İLKİN ADLARI

DÜNYADA ƏN QƏDİM MƏDƏNİYYƏT İZLƏRİ

XOCALI — QƏDİM DÜNYANIN MƏDƏNİ MƏRKƏZİ

ÜZƏRLİKTƏPƏ — QAFQAZDA İLK ŞƏHƏR TİPLİ YAŞAYIŞ MƏSKƏNİ

QİYABİ QƏBİRİSTANLIQ

MÜQƏDDƏS DƏRƏDƏ MƏBƏD ŞƏHƏRİ

BİR MÜNAQİŞƏNİN TARİXÇƏSİ

«ARRANIN ANASI»

«ADSIZ ŞƏHƏR»

«DAŞA DÖNMÜŞ İNSANLAR»

QAYA ÜSTƏ QALA

BEŞİKLİDAĞ ƏFSANƏSİ VƏ HƏQİQƏT

QANLIQALA

NİCAT KÖRPÜLƏRİ

AYRICA DÖVLƏT

ERMƏNİLƏR QARABAĞA NƏ VAXT KÖÇÜRÜLMÜŞLƏR

SON SÖZ ƏVƏZİ

*«Həqiqətən şeytan sizə düşməndir, onu düşmən də bilin».*
***(Quran 35/6)***

Qarabağ uğrunda qurban getmiş şəhidlərimizin əziz xatirəsinə.

## MÜƏLLİFDƏN

Dünyada insanın yarandığı ilk məskənlərdən biri olan və əsrlər boyu təkcə Azərbaycanın deyil, bütün Zaqafqaziyanın iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynamış Qarabağın olduqca zəngin bir keçmişi vardır.

Dəfələrlə yadelli işğalçıların ardı-arası kəsilməyən hücumlarına sinə gərmiş qədim Qarabağ əhalisi nəinki öz varlığını qoruyub saxlamış, həmçinin xalqımızın çoxəsrlik tarixini özündə əks etdirən zəngin maddi-mədəniyyət abidələri yaratmış və onu indiyə kimi qoruyub saxlamışdır. Öz tarixinin və abidələrinin zənginliyi ilə şöhrət tapmış Qarabağın keçmişi bir çox məşhur dünya şərqşünaslarının, o cümlədən Amerika, İngiltərə, Fransa, Almaniya və digər ölkə alimlərinin diqqətini cəlb etmişdir. Onlar bu zəngin diyarın iqtisadi, siyasi və mədəni həyatına aid maraqlı mülahizələr söyləmişlər. Onu da qeyd etmək yerinə düşərdi ki, Azərbaycanın digər feodal hökmdarlıqlarından fərqli olaraq, Qarabağın özünün xüsusi tarixşünaslıq ən'ənələri mövcuddur. Onun tarixini özündə əks etdirən çoxlu «Qarabağnamə»lər, «Qarabağın sirri», «Arsax» və s. kimi zəngin ədəbiyyat silsiləsi vardır.

Son illərdə Qarabağın qədim və orta əsrlər tarixinin öyrənilməsi sahəsində xeyli işlər görülmüş və hal-hazırda da bu sahədə işlər davam etdirilir.

Oxuculara təqdim olunan bu əsərdə də məqsəd məhz həmin tədqiqatların nəticələri ilə qismən də olsa onları tanış etməkdir. Həm də burada söhbət müəllifin elmi imkanı daxilində ən qədim dövrlərdən başlayaraq XIII—XIV əsrlərə kimi davam edir.

Əlbəttə, kiçik bir əsərlə Qarabağın keçmiş tarixinin hərtərəfli işıqlandırılması qeyri-mümkündür. Bizim başlıca məqsədimiz bu zəngin diyarın keçmişinə qısa ekskurs verməklə, geniş oxucu diqqətini cəlb etməkdir.

# QARABAĞIN İLKİN ADLARI

Tarixin müxtəlif dövrlərində bu və ya digər səbəblərdən Qarabağ ərazisi XII—XIII əsrlərə kimi müxtəlif adlar daşımışdır. Bu adlar bə'zən paralel olaraq mövcud olmuş və Qarabağın ayrı-ayrı əyalətlərini əhatə etmişdir. Son antik və ilk orta əsrlərdə Qarabağın bir hissəsi Qarqarlar ölkəsi adlanmışdır. Əsasən indiki Qarqar çayı hövzəsində yaşamış qarqar tayfası qədim müəlliflərin verdiyi mə'lumata görə, Alban tayfa ittifaqına daxil idi. Qarqarlar haqqında mə'lumat verən müəlliflər, onu Albaniyanın ən qədim və ən iri tayfalarından biri hesab etmiş və ilk orta əsrlərdə onların Mil düzünün bir hissəsinə yayıldığını göstərmişlər. Burada Qarqarların özlərinə məxsus eyniadlı şəhəri də mövcud olmuşdur.

Qarqarların etnik mənsubiyyəti haqqında elmdə üç əsas fikir mövcuddur. Bir sıra tədqiqatçılar qarqarların türkdilli olduğunu iddia edirlər. Digər tədqiqatçılar, (xüsusilə erməni tarixçilərinin bir hissəsi) Qarqar toponiminin erməni dilində olduğunu və «daşın döşü» mə'nasını verdiyini iddia edirlər. Üçüncü fikrin sahibləri qarqarların İber-Qafqaz etnik qrupuna aid olduğunu iddia edirlər və bir növ albanlarla eyniləşdirirlər. Hətta K. V. Trever qarqarları Albaniyada ən geniş yayılmış küp qəbirləri mədəniyyətinin sahiblərindən biri hesab edir. Əgər nəzərə alsaq da, çar Arsvaqanın dövründə yerli ziyalı Beniamin ümum Alban ölkəsi üçün əlifbanı da məhz çoxlu boğaz səslərinə malik qarqarların dili əsasında tərtib etmişdir, onda üçüncü fikrin həqiqətə daha uyğun olduğunu söyləmək olar. Çox təəssüflə deməliyəm ki, Qarqarlara məxsus arxeoloji abidələr hələ də kifayət qədər öyrənilməmişdir. Yalnız bir həqiqət mə'lumdur ki, bu tayfa əvvəlcə dağlarda məskunlaşdığı halda, sonralar düzən hissəyə enmiş və oturaq həyatla məşğul olmuşlar. Albaniyada xristianlığı da ilk qəbul edən tayfalardan biri məhz qarqarlar olmuşdur. Həmdullah Qəzvini özünün «Nüzhət əl-Qülub» əsərində göstərir ki, Qarqar ərazisində taxıl, pambıq və meyvə yetişdirilirdi.

Qarabağın digər bir hissəsi Uti adlanmışdır. Utilər də qədim alban tayfalarından biri olmuş və qarqarlara nisbətən daha geniş bir ərazini əhatə etmişdir. Bəlkə elə buna görədir ki, Utinin Qarabağdakı hissəsi «Xüsusi Uti» və ya «Mərkəzi Uti» adlanmışdır. Yazılı mənbələrdə Uti, Utik, Otena, Udin və s. adlanan bu tayfa əfsanəyə görə albanların mifik əcdadı olan hökmdar Arranın nəslindən əmələ gəlmişdir. İnzibati cəhətdən 7 əyalətə bölünmüş Utinin ən iri əyaləti «Xüsusi Uti» məhz Qarabağda olmuşdur. Uti Alban ittifaqında istər iqtisadi, istərsə də siyasi cəhətdən əsas yerlərdən birini tutmuşdur. Mənbələr Bərdənin də Uti şəhəri olduğunu qeyd edirlər. Hal-hazırda udinlərin qalıqlarına Qarabağda, Qəbələ və Oğuz ərazilərində də təsadüf olunur. Uti sözünün mənşəyi və mə'nası barədə geniş tədqiqat işi aparılmamışdır. Yalnız akademik N. Y. Marr vaxtilə Uti sözü üzərində dayanmış və bu sözün «Qara adamlar» mə'nasını kəsb etməsi ehtimalını irəli sürmüşdür. Qeyd etmək maraqlı olardı ki, hazırda Qarabağda böyük bir tayfa «Qaralar» adlanır və bu tayfanın ən böyük ziyarətgahı Qaraman baba ocağıdır.

Bütün bu etnonimlərin əlaqəsi xüsusi tədqiqat tələb edir. Qeyd etməliyəm ki, VI—VII əsrlərdən e'tibarən Qarqar sözü coğrafi və etnik bir məvhum kimi öz əhəmiyyətini itirmişdirsə, həmin dövrdən e'tibarən, Qarabağın bütün düzən hissəsi Uti adlanmışdır. Bunun səbəbi çox güman ki, bütün ərazinin bir neçə inzibati dairədə birləşməsi ilə əlaqədar olmuşdur. Belə ərazi bölgələrinin yaranması mümkün idi, çünki artıq III—IV əsrlərdən bütün Albaniyada olduğu kimi Qarabağda da feodal münasibətləri inkişafa başlamışdır. III—IV əsrlərdən e'tibarən Qarabağın dağlıq hissəsi Arsax adlanır. Bir çox orta əsr erməni tarixçiləri Arsax adı altında ayrıca ölkə və ya xüsusi hökmdarlıq nəzərdə tutmuşlar. Arsax sözünün etimologiyasına gəlincə bir çox tədqiqatçılar onu Çində Tanrı dağı ətəyində yaşamış türk Ağhun tayfalarından bir qolunun adı olduğunu iddia edirlər. Yeri gəlmişkən göstərməliyik ki, ilk orta əsrlərdə Arsaxın bir hissəsində türkdilli Ağhun adlanan tayfa yerləşmişdir.

Qarabağın Xaçın və Tərtər çaylarının dağlıq hissəsi bir müddət, yə'ni XII əsrdən sonra Xaçın da adlanmışdır. Burada XII əsrin sonundan eyni adla xüsusi feodal hökmdarlığı belə mövcud olmuşdur. Bu ad həmin ərazidən axan eyni adlı çayla əlaqədar yaranmışdır.

Bəs Qarabağ adı bu əraziyə nə vaxt verilmişdir? Qeyd etməliyik ki, «Qarabağ sözünü erməni dilinə tərcümə olunmuş halda ilk dəfə XII əsrdə yaşamış Anili Samuel «Sev ayqi» (Qara bağ) deyə işlətmişdir. Bir qədər ondan sonra yaşamış tarixçi Tovma Ardsruni isə Qarabağ sözünü tərcümə etmədən olduğu kimi «Qarabağ» deyə işlətmişdir. Beləliklə, aydın olur ki, artıq XII—XIII əsrlərdə Qarabağ adı məşhurlaşaraq yazılı ədəbiyyata düşmüşdür. Lakin bu heç də o demək deyildir ki, Qarabağ sözü XII—XIV əsrlərdə yaranmışdır, çox güman ki, o uzun müddət şifahi surətdə geniş xalq kütlələri arasında işləndikdən sonra yazılı ədəbiyyata düşmüşdür. Bu əraziyə Qarabağ adının verilməsi səbəblərinə gəlincə belə bir ehtimal var ki, onun birinci hissəsi, yə'ni «qara» sözü qədim türkdilli xalqlarda «çox», «böyük», «geniş» mə'nalarında işlənmiş, ikinci hissəsi «bağ» sözü isə fars dilində olub təsərrüfatda bağçılığın geniş inkişafı ilə əlaqədar olaraq yaranmışdır. Doğrudan da, hal-hazırda olduğu kimi, hələ beş min il bundan əvvəl Qarabağda bağçılığın geniş inkişaf etdiyi elmi dəlillərlə sübut edilmişdir. Lakin «Qarabağ» sözünün Peçeneq—Kəngərli tayfalarından birinə məxsus olduğunu söyləyənlər də vardır.

Yuxarıda göstərdiyimiz toponimlərdən fərqli olaraq Qarabağ daha geniş ərazini, yə'ni qədim Paytakaran, Uti, Haband, Arsax və Qarqar vilayətlərinin bir hissəsini birləşdirərək Araz və Tərtər çayları arasını əhatə etmişdir.

Beləliklə, biz Qarabağ ərazisinin tarixin müxtəlif dövrlərində başqa-başqa adlar daşımasının şahidi oluruq, bunun səbəblərini bir tərəfdən əgər yerli əhalinin etnik tərkibində tarixən baş vermiş dəyişikliklərlə əlaqələndirmək olarsa, digər tərəfdən də həmin ərazidə feodal pərakəndəliyi dövründə baş vermiş bir sıra siyasi-inzibati dəyişikliklərlə bağlamaq lazımdır.

# DÜNYADA ƏN QƏDİM MƏDƏNİYYƏT İZLƏRİ

Qarabağın təbii-coğrafi şəraiti, buranın ən qədim insan məskənləri xəritəsinə daxil olmasına səbəb olmuşdur. Azərbaycan arxeoloqları indiki Füzuli şəhəri yaxınlığında dünyada ən qədim insan məskənlərindən olan Azıx və Tağlar mağarasını aşkar etmişlər. Quruçay və Köndələnçayın bir növ suayrıcında olan Azıx mağarası bir neçə iri salondan ibarət olub, uzun bir dövrdə ibtidai insanların düşərgəsi olmuşdur. Qazıntılar zamanı buradan ibtidai insanların həyat şəraitini özündə əks etdirən, həm də təxminən 1,5—2 milyon il bundan əvvəlki dövrdə Azərbaycanın fauna və florasını özündə əks etdirən zəngin maddi mədəniyyət qalıqları aşkar edilmişdir. 1969-cu ildə Azıx tədqiqatçılarının həyatında son dərəcə əlamətdar olan bir hadisə baş verdi, mağaranın salonlarından birində qazıntı aparılarkən oradan dünyada 5-ci hadisə kimi qeydə alınan ən qədim insan çənəsinin bir hissəsi tapıldı. Elmi ədəbiyyatda «Azıxantrop» (Azıx adamı) kimi qeydə alınmış bu tapıntı demək olar ki, nəinki Azərbaycanın, eləcə də Qafqazın ən qədim sakini olmuşdur. Alimlərimiz Azıx adamının həyat və fəaliyyətini öyrənərkən son dərəcə maraqlı nəticələrə gəlmişlər. Hər şeydən əvvəl mə'lum olmuşdur ki, Azıx adamı oddan istifadə etməyi, onu saxlatmağı bacarmış, alət hazırlamaq üçün keyfiyyətli daş mə'dənləri aşkar etmiş, heyvan ovlamağın müxtəlif sirlərinə bələd olmuşdur. Azıx adamı və onun həmdaşları arxeoloqların Quruçay mədəniyyəti adlandırdıqları, bəşər tarixində ən qədim olan bir mədəniyyətin yaradıcıları olmuşlar. Bu mədəniyyətin başlıca xüsusiyyətləri ondan ibarət idi ki, Quruçay vadisində yaşayan ibtidai insanların mövcud daşlardan silah və alət hazırlamaq üçün xüsusi daş seçmə metodları, alət hazırlama texnologiyası, heyvan ovlama üsulu və butünlükdə təbiətlə təmas metodu mövcud olmuşdur. Həm də maraqlıdır ki, bu xüsusiyyətlər təkcə daş dövrü üçün deyil, Eneolit və Tunc dövrləri üçün də xarakterik olan uzun bir təkamül yolu keçmişdir. Daş dövrünün yüksək texniki cəhətlərini mənimsəmiş Azıx və Tağlar mağaralarının ən üst təbəqəsinin sakinləri eradan əvvəl V—IV minilliklərdə bəşər tarixi üçün ən böyük nailiyyət olan Mis—Daş dövrünə qədəm qoydular və beləliklə də dünyanın qədim mədəni mərkəzlərinə məxsus olan iki böyük hadisənin, yə'ni ilk ictimai əmək bölgüsünün yaranması və ana nəslini ata nəslinin əvəz etməsi kimi bəşəri proseslərin iştirakçıları oldular.



**Daş dövrü əmək alətləri.**

Quruçay mədəniyyəti sakinləri nəinki ilk metalın—misin e'malı sirlərinə bələd olurlar, onlar həmçinin əkinçilik və maldarlıqla məşğul olur və bu məqsədlə Quruçay və Köndələnçay vadisində yeni-yeni yaşayış məskənləri salırlar. Əsasən yüksək təpələr üzərində salınmış belə yaşayış yerlərindən biri Qaraköpəktəpə adı ilə məşhurdur. İndiki Füzuli şəhəri ərazisində olan bu təpə Köndələnçayın sağ sahilində yerləşməklə, çayın səviyyəsindən 50 m yüksəklikdədir. Çoxtəbəqəli, yə'ni Eneolitdən orta əsrlərə kimi geniş bir dövrü əhatə edən Qaraköpəktəpə yaşayış yeri eradan əvvəl V—IV minilliklərdən başlayaraq eramızın XII—XIV əsrlərinə qədər zəngin yaşayış yeri olmuş və ibtidai dövr üçün xarakterik olan daş alətlərdən, saman qarışıqlı, əldə hazırlanmış gil qablardan başlayaraq, mükəmməl quruluşlu tunc silahlar, zərif naxışlanmış gil qablar və ibtidai qazmalardan gözəl me'marlıq xüsusiyyətlərinə malik yaşayış binalarına qədər zəngin bir inkişaf yolu keçmişdir.



**Azıxantropun alt çənəsinin bir hissəsi.**

Quruçay və Köndələnçay vadisində Qaraköpəktəpə ilə yanaşı Meynətəpə, Günəşlitəpə, Xantəpə, Kültəpə və s. abidələr Azıx adamından başlayaraq inkişaf etmiş Tunc dövrunə qədər insanların həyat və məişətini, onların təsərrüfatını, həmçinin əsrlər keçdikcə onlarda əmələ gələn iqtisadi və ictimai dəyişiklikləri izləməyə imkan verir. Belə bir izləməni, yə'ni insanın yarandığı vaxtdan onun etnik qrup kimi formalaşmasına qədər olan müddəti özündə əks etdirən, Qarabağ düzlərinin yaraşığı olan yüzlərlə təpələr vardır. Bunlardan aşkar olunmuş maddi mədəniyyət qalıqları indi nəinki Azərbaycanın, Moskva və Sankt-Peterburqun, eləcə də dünyanın bir çox, o cümlədən Parisin, Berlinin, Londonun və s. şəhərlərin muzeylərini bəzəyir.

## XOCALI — QƏDİM DÜNYANIN MƏDƏNİ MƏRKƏZİ

Xocalı öz abidələrinin növləri, onların xarakterik xüsusiyyətləri və maddi-mədəniyyət qalıqlarının zənginliyi e'tibarilə hələ keçən əsrdən dünya alimlərinin diqqətini cəlb etmişdir. Bu abidələrlə alman arxeoloqu E. Resler, rus şərqşünası M. Xanıkov, ingilis F. Bayer, fransız A. Berje və başqaları tanış olmuş və oradan tapdıqları əşyaları öz ölkələrinə apararaq ayrı-ayrı muzeyləri bəzəməyə çalışmışlar.

Azərbaycan alimləri tərəfindən Xocalı abidələrinin tədqiqinə 1920-ci illərdə başlanmışdır. Burada ilkin tədqiqat işləri aparmış Azərbaycanın görkəmli alimi Ə. Ələkbərov Xocalı abidələri kompleksini Azərbaycan abidələri haqqında təsəvvür əldə etmək üçün açar adlandırmışdır.

Əsasən eramızdan əvvəl XVII—XIII əsrləri əhatə edən Xocalı abidələri kompleksi yaşayış yerlərindən, daş qutu qəbirləri, müxtəlif tipli kurqanlardan, siklop tikililər, kromlexlərdən və menhirlərdən ibarətdir.

Adını çəkdiyimiz mədəniyyətə aid yaşayış yerləri, bir qayda olaraq, çay kənarlarında, təbii-coğrafi cəhətdən əlverişli yerlərdə, xüsusilə strateji cəhətdən müdafiəsi qismən asan olan təpələr üzərində salınırdı. Yaşayış yerlərində evlər əksər hallarda yarımqazma halında olub, yuxarı hissəsi yonulmamış çay daşlarından palçıqla suvamaq yolu ilə tikilirdi. Evlərin əksəriyyəti çoxgözlü olub, bütün tayfa üzvlərinə aid olurdu. Arxeoloji qazıntılar nəticəsində müəyyən edilmişdir ki, çox vaxt tayfa evləri uzunsov olub, düzbucaqlı formada inşa edilmişdir. Bə'zən uzunluğu 17—18 metr, eni isə 8—10 metr olan bu cür evlər xüsusi arakəsmələr vasitəsi ilə bir neçə hissəyə bölünmüşdür. Evin divarlarında xüsusi baca yerləri düzəldilirdi. Onun içərisində ərzaq saxlamaq üçün ya quyu qazılırdı, yaxud da iri təsərrüfat küpləri basdırılırdı. Tunc dövrünün sonu və Dəmir dövrünün əvvəllərində, yə'ni eradan əvvəl II minilliyin sonunda artıq bu cür evlərin döşəmə və divarları xüsusi ağ maddələrlə suvanır və böyük ailə evləri kiçik ailə evləri ilə əvəz olunur.

Danışdığımız dövrdə möhrədən hörülmüş evlərə və formaca dairəvi olan yarımqazma evlərə də təsadüf edilmişdir. Bütün bunlar primitiv şəkildə də olsa yerli əhalinin müxtəlif tikinti texnikasına malik olmasını parlaq surətdə sübut edir.

Xocalı —Gədəbəy mədəniyyətinə aid abidələrin böyük bir qismini də siklop tikililəri təşkil edir. Əsasən yüksək təpələrdə və alçaq dağlarda bina edilmiş bu abidələr yerli əhali tərəfindən hazırda «Qalaça», «Örtük daşı», «Hasar», «Düzülü daş» və s. adlanır. Siklop tikililərinin xarakterik cəhəti ondan ibarətdir ki, bu abidələr yonulmamış iri daşlardan, suvaqsız olaraq, müəyyən bir plana riayət olunmadan tikilmişdir. Bu tikililər bə'zən iki və hətta üçqat divarla əhatə olunurdu. Hər bir divarın arasındakı məsafə 5-10 m-ə qədər olur. Siklop tikililərində qapı yerləri üç sal daşdan düzəldilib, üstündən isə hörgü davam etdirilmişdir. Siklop tikililərini tədqiq etmiş alimlər onların nə vaxt meydana gəlməsi və nə məqsədlə bina edilməsi üzərində xeyli mübahisə etmişlər. Mə'lum olmuşdur ki, bu abidələr əsasən, eradan əvvəl II minillikdə və I minilliyin əvvəllərində mövcud olmuşdur. Onların dövrü qəti müəyyən edilmişdirsə, lakin onların vəzifəsi, yə'ni nə məqsədlə tikilməsi hələ də mübahisəlidir. Bə'zi alimlər onların daimi yaşayış yeri və ya böyük ticarət yolları üzərində müdafiə məntəqələri, bə'ziləri siklopların böyük bir qismini müqəddəs yer olub, ibadətgah məqsədilə bina edildiyini, bə'ziləri bağ-bostan yeri olduğunu, daha başqaları isə bu tikililəri köçərilərin mal-qara saxlamaq üçün inşa etdiklərini söyləyirlər. Lakin son tədqiqatların nəticələrindən aydın olmuşdur ki, bütün Kiçik Qafqaz dağlarının köç yolları kənarında inşa edilmiş siklop tikililərinin heç də hamısı eyni məqsəd güdməmişdir və başlıca olaraq üç məqsəd daşımışdır: 1) iri ticarət yolları üzərində bu yolları müdafiə etmək məqsədilə; 2) düşmən hücumları zamanı əhalini müvəqqəti mühafizə etmək

məqsədilə; 3) müqəddəs yerləri əbədiləşdirmək məqsədilə bina edilmişlər. Onların bir çoxu sonralar yaşayış məskəni kimi və yaxud da köçərilərin öz mal-qarasını saxlamaq üçün istifadə edilmişdir.

Xocalı—Gədəbəy mədəniyyəti sakinlərinin həyat tərzini və mədəni inkişaf səviyyəsini öyrənmək üçün həmin mədəniyyətə məxsus qəbir abidələri və qəbirlərdən toplanmış maddi mədəniyyət qalıqları böyük əhəmiyyət kəsb edir. Arxeoloji tədqiqatlardan aydın olmuşdur ki, bu mədəniyyət sahiblərinin bir neçə tip qəbir abidəsi olmuşdur ki, onların da böyük bir qpunu kurqan qəbirləri təşkil edir.



**Daş alətlər.**

Qarabağ düzlərinin bir növ təbii yaraşığı olan bu kurqanlar müxtəlif quruluşlu və müxtəlif tərkibli hündür təpələrdən ibarət olub, vaxtilə sün'i surətdə qəbirlərin üstünə tökülmüşdür. Kurqanlar bə'zən sadəcə olaraq torpaqdan, yaxud daşdan, bir çox hallarda isə daşla torpağın qarışığından tökülmüşdür.

Kurqanların özləri müxtəlif olduğu kimi, onların altındakı qəbirlər də müxtəlif olmuşdur. Ölünü dəfn etmək üçün bəzən kurqanın altında «ev» tikilmiş, dairəvi hasar çəkilmiş, bə'zən isə daş qutular düzəldilmişdir. Xocalı kurqanlarında aparılmış qazıntılar nəticəsində müəyyən edilmişdir ki 3—4 min il bundan əvvəl bu ərazidə iki cür dəfn adəti olmuşdur.

Onlardan biri ölünü olduğu kimi dəfn etmək, digəri isə ölünü yandıraraq dəfn etmək. Hər iki halda kurqanlar həm ailəvi, həm də tək-tək şəxslərə məxsus düzəldilmişdir. Ailəvi kurqanlarda bə'zən 50-dən çox skelet aşkara çıxarılmışdır.

Ölüyandırma hadisəsi Qarabağda uzun ömür sürməmişdir və alimlərin ehtimalına görə bu adət, qalıqları indi də dünyanın bir çox xalqları arasında mövcud olan müqəddəs od ayini ilə əlaqədar idi. Lakin istər ölü yandırmaq, istərsə də ölünü olduğu kimi dəfn etmə adətində kurqan qəbirləri üçün xarakterik olan ümumi bir əlamət vardır. Bu əlamət həmin qəbirlərdə dəfn olunan adamın axirət dünyaya böyük var-dövlətlə yola salınması idi. Azərbaycanın hər yerində olduğu kimi Qarabağ sakinlərinin də qədim dini əqidəsinə görə guya ölən adam ölmür, o, yalnız dünyasını dəyişir. Daha doğrusu müvəqqəti olaraq bu dünyanı tərk edib, əbədi axirət dünyasına gedir. Ona görə də ölən şəxsi axirət dünya üçün hər şeylə: mal-qara, ev avadanlığı, bəzək şeyləri, şəxsi geyim, silah və başqa qiymətli əşyalarla tə'min edib, bu şeyləri onun qəbrinə qoyurdular, hətta bəzən elə olurdu ki, ölən adamın əzizlərindən birini də öldürüb onun yanında dəfn edirdilər. Sinifli təbəqələşmə dövründə isə iri qəbilə başçıları öldükdə onun xidmətçilərindən bir-iki nəfərini ölən adamla birlikdə dəfn edirdilər ki, axirət dünyasında da ona xidmət

etsinlər. Beləliklə, hər bir kurqan özü ayrılıqda bir xəzinəni xatırladır. Kurqan qazıntıları zamanı oradan aşkar edilmiş maddi mədəniyyət qalıqları yerli əhalinin ibtidai dini ideologiyasını, onun təsərrüfat həyatını, hərbi ləvazimatını, incəsənətini, məişətini və bir sıra başqa sahələrini öyrənmək üçün böyük əhəmiyyət kəsb edir.

Xocalı kurqanlarının tədqiqi nəticəsində mə'lum olmuşdur ki, danışdığımız dövrdə Qarabağın sakinlərinin həyatında sənətkarlığın iki böyük sahəsi mühüm yer tutmuşdur. Onlardan biri dulusçuluq, digəri isə metal işləmə sənətidir.

Ümumiyyətlə, bəşər tarixinin Tunc dövründə demək olar ki, məişətin bütün sahələrində, əsasən, gil qablardan istifadə edilirdi. Gildən təsərrüfat qabları, bəzək əşyaları, uşaq oyuncaqları və digər sahələrdə istifadə etmək üçün olduqca müxtəlif əşyalar hazırlanırdı. Xocalıdan toplanmış külli miqdarda gil qablar kolleksiyası sübut edir ki, Qarabağ dulusçuları bu sənət sahəsində çox yüksək inkişaf pilləsinə qalxmışdılar. Onlar hazırlayacaqları qablar üçün xüsusi, yararlı gil mə'dənləri aşkar etmiş və bəşər tarixində ilk texniki tərəqqi üsullarından biri olan ayaq çarxının sirlərinə dərindən bələd olmuşlar. Qarabağın dulusçu ustaları böyük məharətlə hazırladıqları gil qabları bişirmək üçün dairəvi dulus kürələrindən istifadə etmişlər. Bir qayda olaraq dulusçular Tunc dövründə hazırladıqları gil qabların hamısının üzərini cilalamış və onları qara rəngdə bişirmişlər. Qabların bədii tərtibatına da ciddi fikir verilmişdir. Belə ki, əksər qabların üzərində müxtəlif həndəsi fiqurlar, nəbati təsvirlər cızılmışdır. Ən maraqlısı isə odur ki, qablar üzərindəki xətlərin içərisini xüsusi ağ maddə ilə doldurmuşlar. Bu da Qarabağ qablarının ən mühüm xüsusiyyətlərindən biridir.

Xocalı—Gədəbəy mədəniyyətinə məxsus gil qabların xüsusiyyətlərindən biri də odur ki, dulusçu ustalar hazırladıqları əksər qabların çiyni üzərində xüsusi göbələkvarı çıxıqlar düzəltmişlər. Bu çıxıqlar həmin qablara xüsusi gözəllik verir.

Xocalıdakı 5 №li kurqandan aşkar edilmiş bir ədəd gil qabın qulpu üzərində isə buğda dənələri təsvir edilmişdir. Alimlərin tədqiqatı nəticəsində mə'lum olmuşdur ki, 3—4 min il bundan əvvəl Qarabağın sakinləri mədəni buğda əkinçiliyi ilə məşğul olmuşdur. Yeri gəlmişkən qeyd edək ki, Xocalıda Qarabağda qədim bağçılığın inkişafını da sübut edəcək xeyli maddi mədəniyyət qalıqları aşkar edilmişdir ki, bunların içərisində şaftalı, üzüm tumları və s. əsas yer tutur.

Yuxarıda göstərdiyimiz kimi, Tunc dövründə Qarabağda inkişaf etmiş mühüm sənətkarlıq sahələrindən biri də metalişləmə olmuşdur. Bütün Zaqafqaziyada mis ilə qalayın qarışdırılmasından tunc metalın alınması sirrlərinə ilk dəfə bələd olanlardan biri də Qarabağın qədim sakinləridir. Bu möhkəm metaldan yerli əhali əsasən silahlar hazırlamışdır. Bə'zən isə ondan bəzək əşyaları hazırlamaqda da istifadə edilmişdir. Tuncdan hazırlanmış qılınclar, xəncərlər və çoxlu ox ucları demək olar ki, Qarabağ abidələrindən tapılan ən çox silah növləridir.

Qarabağ qılınclarının dəstələrinin baş hissəsi formasına görə digərlərindən fərqlənir. Belə ki, Qarabağın qədim qılınclarının dəstə hissəsinin başında iki tərəfli çıxıqları olur və həmin çıxıqlar qılıncın əsas hissəsinə doğru maili düzəldilir. Bu çıxıqlar bə'zən zoomorf formada, bə'zən isə müxtəlif həndəsi cizgilərlə bəzədilirdi.

Eramızdan əvvəl birinci minilliyin başlanğıcında Qarabağın qədim sakinləri artıq dəmir istehsalının sirrlərinə bələd olmuşdular.

Xocalı abidələrinin öyrənilməsi nəticəsində burada bütün Azərbaycan üçün yeganə olan iki mühüm tip abidə də aşkar edilmişdir. Onlardan biri menhirlərdir. Menhir ingilis sözü olub, uzun daş deməkdir. Bu abidələrin əsas vətəni Böyük Britaniyadır. Orada elə menhirlər vardır ki, ağırlığı 50—60 tona yaxın olur. Xocalı menhirləri isə nisbətən kiçikdirlər. Menhir qəbilə quruluşu dövrünün məhsulu olub, ölən adamın qəbiri üzərində dik basdırılmış bir növ heykələ oxşar daşdır. Adətən belə daşları qəbilə başçılarının qəbirlərinin üzərində qoyurdular. Qədim dini əqidəyə görə, guya ölən adamın ruhu bədəni tərk edir və həmin ruh daşa keçirdi. Daşa keçmiş ruh isə orada əbədi yaşayırdı. Hətta qəbilə başçısı ölərkən uzun müddət qəbilə üzvləri onun əvəzinə qəbiləyə başçı seçmirdilər. Qəbilə başçılığını mərhumun daşa keçmiş ruhu əvəz edərdi. Hətta qəbilə üçün müəyyən təhlükələr baş verdikdə üzvlər yığışıb menhirin (yə'ni qəbilə başçısının ruhu yaşayan daşın) yanına gələr və orada müxtəlif dini ayinlər icra etməklə guya qəbiləni yaranmış təhlükədən xilas edərmişlər. Maraqlı burasıdır ki, ibtidai dini təsəvvürlərin qalığı olan həmin daşlardan biri son zamanlara kimi, dindarların ibadət yerinə çevrilmişdir. Onlar havalar quraqlıq və ya həddindən artıq yağışlı keçdikdə həmin daşın yanına gəlib ona ibadət edir, daşdan mərhəmət diləyirdilər. Bu ayinlərin icrası zamanı həmin daşı yerə yıxıb yenidən basdırır və digər əməliyyatlar aparırmışlar.

Xocalı abidələri içərisində nadir yadigarlardan biri də kromlexlərdir. Kromlex dairəvi düzülmüş bir neçə dik və onların üzərinə qoyulmuş bir ədəd köndələn daşdan ibarətdir. Yenə də ibtidai dini əqidənin məhsulu olan bu abidə dindarlar arasında axirət evi adlanır. Guya bu cür abidələr düzəltməklə mərhum üçün əbədi ev tikmiş olurdular. Bütün bu abidələr yerli əhalinin mə'nəvi mədəniyyət tarixini öyrənmək üçün son dərəcə böyük elmi əhəmiyyət kəsb edirlər.

Nəhayət göstərməliyik ki, Azərbaycanda ən qədim yazı da məhz Qarabağda aşkar edilmişdir. Belə ki, Xocalıda tədqiq olunan 11 №-li Kurqandan üzərində mixi yazısı olan bir ədəd kiçik muncuq tapılmışdır. Akademik İ. İ. Meşşaninov müəyyən etmişdir ki, bu muncuğun üzərində eramızdan əvvəl VIII əsrdə yaşamış Assuriya çarı Adadnirarinin adı yazılmışdır. Bu yazı təkcə Qarabağın deyil, eləcə də bütün Azərbaycanın siyasi tarixinin öyrənilməsində böyük əhəmiyyətə malikdir.

Xocalı—Gədəbəy arxeoloji mədəniyyətinə məxsus abidələrə yekun vurarkən qeyd etməliyik ki. bu mədəniyyətin izi ilə məşğul olan bir çox Qafqazşünas alim təkcə Azərbaycanın deyil, ümumiyyətlə Yaxın Şərq ölkələrinin maddi mədəniyyət tarixi ilə əlaqədar bir sıra problemlərin həlli üçün ondan geniş

istifadə edirlər. Bu problemlərdən biri, 3—4 min il bundan əvvəl Yaxın Şərq ölkələrinin bir-biri ilə mədəni və iqtisadi əlaqələrinin səviyyəsini öyrənməkdir. Xocalı abidələri sübut edir ki, belə əlaqələr geniş olmuş və müxtəlif etnik qruplar mehriban iqtisadi və siyasi təmasda yaşamışlar.

Təəssüf hissi ilə deməliyəm ki, 1992-ci ilin fevralında erməni və rus ordusunun birləşmiş qoşunları Xocalı əhalisini vəhşicəsinə qırarkən, hərbi texnika ilə genosidin ən iyrənc mərhələsi olan izi məhv etmək kimi mənfur bir əmələ əl atmış və bəşəriyyət üçün nadir abidələr toplusu olan Xocalı abidələrini dağıtmışlar.

## ÜZƏRLİKTƏPƏ — QAFQAZDA İLK ŞƏHƏR TİPLİ YAŞAYIŞ MƏSKƏNİ

Üzərliktəpə Ağdam şəhərinin yaxınlığındadır. Onu Ağdamdan Ağcabədiyə gedən indiki şose yolu qismən dağıtmışdır. Təpənin qərb hissəsi hazırda qəbiristanlığa çevrilmişdir.

Hələ 1954-cü ildə bu təpə bir çox Azərbaycan və rus alimlərinin diqqətini cəlb etmişdi. Ən maraqlısı o idi ki, bu təpə heç də kurqanlar kimi süni surətdə yaradılmamışdır. Yəni o, təbii təpədir. Digər tərəfdən ya yol çəkənlər tərəfindən bu təbii təpənin dağıdılmış hissəsində 3—4 min il bundan əvvələ aid xeyli maddi mədəniyyət qalıqları toplanmışdır. Əlbəttə, alimləri ən çox düşündürən də bu tapıntı təpənin orta qatına necə düşməsi, təpədə daha nə kimi qalıqların mövcud olması, bir sözlə bu sirli təpənin taleyi idi. Alimlər arasında mübahisə edənlər də vardı. Bəziləri onun ən qədim zamanlardan qəbiristanlıq olduğunu iddia edir, başqaları isə təpənin yaşayış yeri olduğunu söyləyirdilər.

Bütün bu mübahisələrə son qoymaq üçün Sankt-Peterburqlu alim A. A. İessen təpədə qazıntı işləri aparmağı məqsədə uyğun hesab etdi. Qazıntı işinə zərurət doğuran səbəblərdən biri də o idi ki, ümumiyyətlə 1950-ci illərə kimi Qarabağda Tunc dövrünə aid yaşayış yerləri tədqiq edilməmişdi. Ona görə də Qarabağın 3—4 min il bundan əvvəlki sakinlərinin yaşayış yerlərinin xarakterini, onların məişətini, evlərinin quruluşunu, tikinti materiallarının növünü və s. öyrənmək üçün belə abidələrin tədqiqinin böyük əhəmiyyəti vardı. Yalnız yaşayış yerləri əhalinin maddi və mənəvi həyat səviyyəsini öyrənməyə kömək edə bilərdi.

Bütün bunları nəzərə alaraq 1954-cü ildə Üzərliktəpədə arxeoloji qazıntı işlərinə başlandı. Qazıntılar nəticəsində məlum oldu ki, hazırda yüksəkliyi 6—7 m olan Üzərliktəpə təxminən eradan əvvəl II minilliyin sonunda cəmi 3,5 m hündürlüyündə olmuşdur. Həmin dövrdə Üzərliktəpənin üstündə yerli sakinlər yaşayış məskəni salmışdılar. Maraqlıdır ki, bütün Azərbaycanda olduğu kimi Qarabağın qədim sakinləri də qəbilə dövründə özlərinə yaşayış məskənləri seçərkən əsasən hündür təpələrdən istifadə etmişlər. Bu da yalnız hərbi məqsəd güdmüşdür. Olduqca sərt üsullarla döyüşən qəbilə müharibələri dövründə təpə sakinləri, kənardan gələn düşmən qüvvələrini daha tez görür və təcili müdafiə

tədbirləri hazırlaya bilirdilər. Digər tərəfdən isə yığcam əraziyə malik olan təpənin ətrafında dərin xəndək qazılırdı. Bu xəndəklər təhlükə zamanı səngər rolunu oynayırdı. Bəzən isə həmin xəndəyi su ilə dolduraraq təpəni bir növ adaya çevirirdilər. Üzərliktəpə də məhz belə möhkəmləndirilmiş, yəni ətrafına qala divarı çəkilmiş yaşayış yerlərindən biri olmuşdur. Əslində ibtidai icma dövrünün dağıldığı və mülkü bərabərsizliyin meydana gəldiyi dövrə təsadüf edən Üzərliktəpə yaşayış yeri ilk şəhər mədəniyyətini özündə əks etdirən nadir abidələrdən idi.

Qazıntılar nəticəsində məlum olmuşdur ki, Üzərliktəpə uzun əsrlər boyu yaşayış yeri olmuş və həmin yaşayış nəticəsində təpədə üç metr qalınlığında mədəni təbəqə əmələ gəlmişdir. Mədəni təbəqənin arxeoloji cəhətdən izlənilməsi nəticəsində müəyyən edilmişdir ki, burada yaşayış arası kəsilmədən təxminən iki min il davam etmişdir.



**Gil qablar.**

Üzərliktəpənin qazıntıları zamanı diqqəti cəlb edən əsas yadigarlardan biri böyük həcmli çiy kərpicdən çəkilmiş divar qalıqları idi. Mə'lum olmuşdur ki, bu divar təpənin üst hissəsini dairəvi surətdə əhatə etmişdir. Alimlər haqlı olaraq bu divarın müdafiə qalası olduğunu qət etmişdilər. Beləliklə, Üzərliktəpənin sakinləri, görünür, düşmən hücumlarından müdafiə olunmaq üçün e'tibarlı hərəkət edərək hər cür tədbir görmüşdülər. Həmin qala divarının içərisində yarımqazma yaşayış evlərinin qalıqları, ocaq yerləri, müxtəlif məqsədlə istifadə edilmiş xəndəklər, əkinçilik alətləri, gil qablar və gildən düzəldilmiş qadın bütləri aşkar edilmişdir. Üzərliktəpədə yaşayış evləri əsasən, çiy kərpicdən tikilmişdir. Evlərin döşəməsi gil ilə hamar suvanmışdır. Hər evdə gil badlardan düzəldilmiş ocaq yerləri vardır. Bundan əlavə, yaşayış evlərinin içərisində, bə'zən isə həyətdə, çoxlu çuxurlar düzəldilmişdir. Tədqiqatçıların fikrincə müxtəlif həcmdə olan bu çuxurlar isə əksər hallarda ərzaq saxlamaq üçün, az-az hallarda isə zibilxana üçün düzəldilmişdir.

1965-ci il qazıntıları zamanı Üzərliktəpədən «hərəkət edən ocaq», yə'ni gildən düzəldilmiş və bir yerdən başqa yerə aparılması mümkün olan manqalvarı kürəcik də tapılmışdır. Buradan aşkar edilmiş maddi mədəniyyət qalıqları içərisində gil qablar xüsusilə çoxluq təşkil edir. Maraqlıdır ki, Xocalı qəbiristanlığından aşkar edilmiş gil qablardan fərqli olaraq Üzərliktəpə sakinlərinin qabları çeşid e'tibarilə olduqca müxtəlifdir. Buradan sərnic, küzəc, təkqulp dolça, nehrə, müxtəlif ölçülü bardaqlar və s. daha çox aşkar edilmişdir. Lakin ən böyük irəliləyiş ondan ibarət idi ki, Üzərliktəpədə artıq bitkilərdən boyaq rəngi almağın sirlərinə bələd olmuşlar və həmin boyalar vasitəsilə məişətdə işlətdikləri gil

qabların bir çoxunu rənggləmişdilər. Bu məqsədlə onlar, başlıca olaraq, iki rəngdən — qara və qırmızı rənglərdən istifadə etmişdilər.

Üzərliktəpədən Qarabağın qədim sakinlərinin əkinçilik mədəniyyətini özündə əks etdirən bir sıra qalıqlar aşkar edilmişdir. Yuxarıda təsvirini verdiyimiz çuxurların və ev döşəmələrinin bir çoxundan, həmçinin gil qabların içərisindən buğda və arpa qalıqları aşkar edilmişdir. Laboratoriya analizindən sonra mə'lum olmuşdur ki, həmin buğda qalıqları 4—5 min il bundan əvvəl mədəni əkin nəticəsində yetişdirilmişdir. Bundan əlavə mə'lum olmuşdur ki, əksər hallarda buğda ilə arpa bir yerdə əkilirmiş. Əkilmiş taxılın biçilməsində istifadə olunmuş əmək alətinin—daş oraqların tapılması da bunu sübut etmişdir. Daş oraq, xırda çaxmaq daşlarını bərabər ölçüdə kəsib, iri buynuzlu heyvanın çənə sümüyünə sıra ilə bərkidilmək yolu ilə düzəldilmişdir. Orağın dişləri hesab edilən daş parçalarının bir tərəfi daşı-daşa vurmaq yolu ilə dişənmişdir. Yeri gəlmişkən qeyd edək ki, Üzərliktəpə sakinlərinin həyatında daş alətlər əsas yer tutmuşdur. Belə ki, burada daşdan düzəldilmiş ox ucları, daş bıçaqlar, çoxlu həvəng dəstələri, kirkirə daşları aşkar edilmişdir. Bundan əlavə daşdan toppuz başları, tərəzi daşları, bəzək və ya dini əşya rolu oynayan döş asmaları və s. düzəldilmişdir ki, bütün bunlar 3—4 min il bundan əvvəl hələ də yerli əhalinin həyatında daş alətlərin üstün rol oynadığını göstərir. Üzərliktəpəlilər yeri də daş toxalar vasitəsilə şumlamışdılar. Bunun üçün onlar bərk cinsli daşın bir hissəsini götürərək onun bir ucunu nazikləşdirmiş və bir növ itiləmişdilər. Daşın digər tərəfi isə ağaca bağlamaq üçün yararlı hala salınmışdır. Belə toxalar Ağdam yaxınlığındakı, digər yaşayış yeri olan Rəsultəpədən də tapılmışdır.

Böyük maraq doğuran tapıntılardan biri də üzüm çərdəklərinin qalığı olmuşdur ki, bu da həmin zonada bağçılığın qədim tarixə malik olduğunu sübut edir. Qədim sakinlərin məişətində sümük alətlərin də rolu az olmamışdır. Onlar sümükdən əsasən, toxuculuq alətləri və tikiş üçün iynələr hazırlamışdılar. Eyni əşyalar misla qalayın qarışdırılması vasitəsilə düzəldilən tunc metaldan da hazırlanmışdır. Əldə olunmuş silahlar, bıçaqlar və s. də tuncdandır. Yeri gəlmişkən qeyd edək ki, Üzərliktəpədə aparılan qazıntılar nəticəsində mə'lum olmuşdur ki, Qarabağın qədim sakinləri bərk metalın, yə'ni tuncun sirrinə 4,5 min il bundan əvvəl, dəmir istehsalının sirrinə isə 3 min il bundan əvvəl bələd olmuşdular.

Haqqında danışdığımız abidə sakinlərinin həyatında əkinçiliklə yanaşı maldarlıq də əsas yer tutmuşdur. Maldarlıq və onun növləri haqqında təsəvvürü həmin abidədən tapılmış çoxlu heyvan sümükləri yaradır.

Alimlərimiz tərəfindən aparılmış laboratoriya analizləri nəticəsində Üzərliktəpədən aşkar edilmş heyvan sümüklərinin mənsubiyyəti tam aydınlaşmışdır. Buradan təkcə bir ilin qazıntısı nəticəsində 464 hissə öküz sümüyü, 285 hissə qoyun-keçi sümüyü, 40 hissə at sümüyü, 104 hissə donuz sümüyü və 6 hissə it sümüyü aşkar edilmişdir. Tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, Üzərliktəpə sakinləri maldarlığın mövsümi köçərilik formasından istifadə

etmişdilər. Yə'ni onlar heyvanları otlaqlarla tə'min etmək məqsədilə yayda dağlara, qışda isə arana köçməklə heyvandarlığı inkişaf etdirmişdilər.

Buradan aşkar edilmiş digər arxeoloji tapıntılar, yerli əhali arasında əkinçilik və maldarlıqla yanaşı ev sənətkarlığının da xüsusilə inkişaf etdiyini göstərir. Ev sənətkarlığında toxuculuq, boyaqçılıq, dulusçuluq və metalişləmə sahələri daha çox inkişaf etmişdir. Bunlarla yanaşı nəfis incəsənət əşyalarının hazırlanması işində də Üzərliktəpənin qədim sakinləri xeyli müvəffəqiyyətlər əldə etmişdilər. Onların metaldan, sümükdən, əqiq və pastadan hazırladıqları bilərziklər, sırğalar, müxtəlif formalı muncuqlar, döş asmaları və s. hazırda muzeylərimizi bəzəyən ən yaxşı eksponatlardır.

Nəhayət, Üzərliktəpədən aşkara çıxarılmış daha bir tapıntı elmi baxımdan son dərəcə maraqlı olub, sakinlərin dini ideologiyasını öyrənmək üçün böyük əhəmiyyət kəsb edir. Bu tapıntı qadın bütüdür. Üst təbəqədə daşdan düzəldilmiş ocağın içərisidən tapılmış bu büt, yerli əhali arasında bütpərəstliyin yayıldığını sübut edir. Ümumiyyətlə Azərbaycan ərazisində hələ Eneolit dövründə müşahidə edilən bu dini təsəvvür sonralar inkişaf edərək antik dövrdə bir növ hökmran rol oynamışdır. Bu dövrdə qadın bütləri çoxluq təşkil edir ki, bu da ananın nəslartırma rəmzi və ya ona həyatın başlanğıcı kimi baxılması ideyasından irəli gəlmişdir.

Arxeoloqlar müəyyən etmişlər ki, Üzərliktəpədə yaşayış eradan əvvəl I minilliyin sonunda kəsilmişdir. Bəs necə olmuşdur ki, insanlar özlərinə əsrlərlə məskən etdikləri bu təpəni tərk etmişlər. Mə'lum olmuşdur ki, Üzərliktəpədə həyat, orada baş vermiş güclü yanğından sonra kəsilmişdir. Həmin yanğından əmələ gəlmiş qalın kül təbəqəsi, məişət əşyalarının yanmış qalıqları arxeoloqları belə bir qənaətə gətirmişdi. Bu yanğının səbəbini isə tədqiqatçılar xarici hücumların nəticəsində görürlər. Beləliklə, eramızdan əvvəl I minilliyin sonunda Üzərliktəpənin tarixi taleyinə son qoyulmuşdur.

Üzərliktəpənin yanğın nəticəsində məhv edilməsinə baxmayaraq, onun kül qatları arasından tapılmış maddi mədəniyyət qalıqları, Qarabağın qədim sakinlərinin öz dövrünə görə böyük bir mədəniyyətə, hərtərəfli təsərrüfat sahəsinə malik olduqlarını və ideoloji cəhətdən bir növ formalaşdıqlarını elmi cəhətdən izləməyə imkan verməklə o, Azərbaycan və eləcə də bütün Zaqafqaziyada ən zəngin abidələrdən biri hesab edilir.

## QİYABİ QƏBİRİSTANLIQ

Dünyanın bir çox xalqları arasında ən qədim zamanlardan belə bir adət vardır, əgər bir nəfər uzaq səfərdə ölürdüsə, bu və ya digər səbəblər üzündən mərhumun cəsədini əldə etmək mümkün deyildirsə, yaxın qohumları ona xatirə abidəsi kimi qiyabi qəbir düzəldirdilər. Mövcud inama görə, guya qəbri olmayan mərhumun ruhu heç bir rahatlıq tapa bilmir. Tarixi ədəbiyyatda genotaf adlanan bu növ qəbirlərə arxeoloji qazıntılar nəticəsində dünyanın bir sıra ölkəsində təsadüf

olunmuşdur. Lakin genotaflardan ibarət bütöv bir qəbiristanlığa hələlik heç bir yerdə təsadüf olunmamışdır. 1968-ci ildə ekspedisiyamızın Qarabağda genotaflardan ibarət açdığı bir qəbiristanlıq dünyada nadir hadisələrdəndir. Haqqında danışdığımız qəbiristanlıq indiki Xocavənd bölgəsinin Ağoğlan mə'bədi ərazisindədir.



**Gil qablar.**

Kəndarası yol çəkilən zaman təsadüfən açılmış bir ədəd küp qəbir tədqiqatçıların diqqətini cəlb etmişdir. Abidə yerində qazıntı aparılmış və küp qəbirlərdən ibarət qəbiristanlıqlar aşkara çıxarılmışdır. Lakin bu qəbirlərin hamısı boş olub, heç bir skletə malik deyildirlər.

Genotaf qəbirlərdən ibarət küplər, digər küp qəbirlərdən bir sıra cəhətləri e'tibarilə fərqlənir. Haqqında bəhs etdiyimiz qəbiristanlıqda küplər nisbətən kiçik olub, böyrü üstə müxtəlif istiqamətlərdə qoyulmuşdur. Küplərin oturacağında kiçik deşiklər açılmış, ağzı isə başqa küplərin parçaları ilə örtülmüş, bə'zən isə həmin parçalar küpün ağzına qoyularaq ətrafı gil ilə suvanmışdır. Qəbirlərə qoyulmuş əşyalar da fərqlənir. Belə ki, digər genotaf olmayan qəbirlərdən fərqli olaraq təsvir etdiyimiz qəbiristanlıqda mərhumun şəxsi əşyalarına, yə'ni onun bəzək əşyalarına, silahlarına, əmək alətlərinə təsadüf olunmamışdır. Qəbirlərə ancaq məişət əşyaları, daha doğrusu əsasən, gil qablar qoyulmuşdur. Bir maraqlı cəhəti də qeyd etmək istəyirəm. Demək olar tədqiq olunmuş bütün genotaf küp qəbirlərində, bir qayda olaraq, küpün kənarına yastı bir daş parçası qoyulmuşdur. Heç şübhəsiz ki, bu əhalinin daşa olan ən'ənəvi inam hissi ilə əlaqədardır. Bu qəbiristanlıqda iki cür — həm küp, həm də daş qutu qəbirlərə təsadüf edilmişdir, hər iki tip qəbir Azərbaycanda yeni eranın ərəfəsində əsas qəbir tipləri olmuşdur. Küp qəbirləri belə bir dini əqidənin məhsulu olmuşdur ki, guya insan torpaqdan yaranmışdır. O, müvəqqəti dünya üçün doğularkən ana bətnində necə yatmışdırsa, daimi dünyaya gedərkən də eyni şəkildə olmalıdır. Beləliklə, küp ana bətninin rəmzi kimi yaradılmışdır. Maraqlıdır ki, içərisində



**Gil qablar, daş alətlər, zoomorf əşyalar.**

skelet olan küp qəbirləri Azərbaycanın digər yerlərində tədqiq olunarkən, müəyyən edilmişdir ki, doğrudan da küpün içərisində skelet, ana bətnində uşağın vəziyyəti necədirsə elə də qoyulmuşdur. Daş qutu qəbirlərə gəlincə onlar da Azərbaycanda ən qədim qəbir tipi olub, bir tərəfdən qəbrin möhkəmliyi üçün qurulurdusa, digər tərəfdən də, uzun müddət insanların daşa şər qüvvələrdən xilasedici amil kimi baxmalarının nəticəsi olaraq yaradılmışdır.

Beləliklə, haqqında danışdığımız qəbiristanlıqda aşkar edilmiş həm küp, həm də daş qutu qəbirlər ibidai dini təsəvvürlərin məhsulu kimi yaranmışdır. Bəs bu qəbirlər nə üçün boşdur, onlar kimlər üçündür?

Yazılı mə'xəzlərdən aydın olur ki, Ağoğlan mə'bədinin ətrafında hələ eramızdan əvvəl kahinlər yaşamışlar. Kahinlərin mənsub olduğu mə'bəd böyük təsərrüfat sahəsi olmuş və həmin sahədə qul əməyindən geniş istifadə edilmişdir.

Albaniyada (Azərbaycanda) olduğu kimi, Ağoğlan mə'bədinin ətraf əhalisi də xarici işğalçılara qarşı bir neçə dəfə gərgin mübarizə aparmış və hətta xeyli uzaqlarda vuruşmuşlar. Belə bir mə'lumat da var ki albanlar III Daranın qoşunları ilə Makedoniyalı İsgəndərə qarşı vətəndən xeyli uzaqlarda döyüşmüşlər. Çox ehtimal ki, Ağoğlan mə'bədinin əhalisi vətəndən uzaqlarda yadellilərlə döyüşlərdə həlak olmuş qohum-qardaşlarına xüsusi qəbiristanlıq salmış və matəmlə əlaqədar bütün mövcud adətləri həyata keçirmişlər.

## MÜQƏDDƏS DƏRƏDƏ MƏBƏD ŞƏHƏRİ

Hələ VII əsrdə yaşamış qarabağlı tarixçi Musa Kalankatlı özünün «Albaniyanın tarixi» adlı əsərində maraqlı bir əhvalat danışır. O, yazır ki, ilk orta əsrlərdə bizim ölkə (Azərbaycan) Sasani İranı ilə Bizans arasında dəhşətli müharibə meydanına çevrilmişdir. Belə bir şəraitdə yerli hökmdarlar özlərinə əbədi arxa tapmaq ümidi ilə Bizansdan xristianlığı qəbul etməyə çalışırdılar. Bir başqaları isə Sasanilər tərəfindən keçərək ölkədə zərdüşt ehkamları təbliğ edirdilər. Belə bir şəraitdə həm Bizansdan, hə də İrandan din xadimləri gəlib Azərbaycanda öz işlərini təbliğ edirdilər. Xristianlığın Azərbaycanda ilk rahibi mənşəcə parfiyalı nəslindən olan Qriqoris olmuşdur. Tarixçinin yazdığına görə Qriqoris ilk fəaliyyətinə indiki Dərbənd şəhəri və onun ətraf ərazisindəki kəndlərdən başlamışdır. Lakin IV əsrdə Azərbaycanda məskunlaşmış məskut hökmdarı Sanatruk Qriqorisi erməni casusu olduğunu nəzərə alaraq onu Vatnean çölündə atın quyruğuna bağlayıb sürüdülər və meyidini bir kəlafaya atdılar. Musa Kalankatlı sözünə davam bir kalafaya atdılar. Moisey Kalankatlı sözünə davam olmuşdur. Həmin tələbələr Qriqorisin meyitini götürüb Amaras dərəsinə gətirir, orada yüksək bir yerdə dəfn edirlər. Guya həmin vaxtdan yə'ni V əsrdən e'tibarən Amaras dərəsi Qriqorisin şərəfinə müqəddəs elan edilmişdir.

Maraqlı cəhət budur ki, hal-hazırda da həmin dərə müqəddəs hesab edilir və ətraf ərazinin bir çox əhalisi bazar günləri bu dərəyə gəlir, qurbanlar kəsir və ibadət

edirlər. Həmin dərə indiki Xocavənd rayonunun Sos kəndi ərazisində yerləşir. Özünün keçmiş abidələri e'tibarilə maraqlı olan bu dərəni arxeoloji cəhətdən öyrənmək üçün Azərbaycan EA Tarix İnstitutu tərəfindən müəllifin rəhbərliyi altında arxeoloji ekspedisiya təşkil edilmişdir. Bir neçə ilin tədqiqatı nəticəsində müəyyənləşdirilmişdir ki, Amaras dərəsi öz təbiəti e'tibarilə tarixən gözəl—səfalı bir yer imiş və bir növ düzən hissədə əhalinin istirahət guşəsi olmuşdur. Elə ona görə də həmin yerin adı Amaras, yə'ni «yay düşərgəsi» adlanır. Lakin maraqlı cəhət budur ki, Amarasdan əlavə bu dərəyə ətraf ərazidə yaşayan həm azərbaycanlılar, həm də ermənilər eyni zamanda «Ağoğlan» deyirlər. Əksər tədqiqatçılar bu qənaətə gəlmişlər ki, «Ağoğlan» adı Amaras adından daha qədim olub xristnanlıqdan əvvəlki dövrə aiddir. Həm də bu ad ibtidai dini təsəvvürlər dövrünün məhsuludur. Bəs, arxeoloji tədqiqat işləri nə göstərdi! Yerüstü tədqiqatlar zamanı müəyyən edildi ki, haqqında danışdığımız dərədə vaxtilə böyük bir şəhər mövcud idi. Həmin şəhər dini zəmində inkişaf edərək XIII əsrə kimi geniş fəaliyyətdə olmuş və yalnız XIII əsrdə monqollar tərəfindən dağıdıldıqdan sonra bir şəhər kimi öz əhəmiyyətini itirmişdir. Arxeoloji tədqiqatlar nəticəsində şəhərin sənətkarlar məhəlləsi, divanxanası, hamam kompleksi, burada tikilmiş ilk yeraltı mə'bəd, yaşayış evləri, karvansara və qala divarları aşkar edilmişdir. Mə'lum olmuşdur ki, həmin dərədə şəhərə və onun mə'bədinə xidmət edən bir neçə kənd mövcud idi ki, həmin kəndlərin xarabalığı yer üstündə indi də müşahidə edilir. Yazılı mənbələr, epiqrafik abidələr və arxeoloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Amaras dərəsində həyat hələ eramızdan əvvəl I minillikdə başlanmışdır. 1968-ci il qazıntıları nəticəsində dərədən eramızın ərəfəsinə aid küp qəbirləri, daş qutu qəbirləri və sadə torpaq qəbirləri aşkara çıxarılmışdır. Bu qəbirlərdə ölülər zəngin avadanlıqlarla dəfn edilmişlər. Lakin ilk orta əsrlərin başlanğıcına kimi Amaras hələ şəhərə çevrilməmişdi. İlk orta əsrlərdə ölkədə, yə'ni Albaniyada (qədim Azərbaycanda) xristianlıq qəbul edildikdən sonra ayrı-ayrı din xadimləri öz əllərinə iri torpaq sahələri keçirərək oranı müqəddəs yer e'lan edirdi. Amarasın da taleyi IV əsrin sonu—V əsrin əvvəllərində belə olmuşdur. Xristian missionerləri gözəl təbiətə və yararlı torpaq sahəsinə, həmçinin geniş meyvə bağlarına malik olan Amarası ələ keçirərək oranın əhalisini istismar edirdilər. Qriqorisin tələbələri tərəfindən burada dəfn edilməsi də görünür təsadüfi xarakter daşımamışdır. Xristian tarixçilərinin mə'lumatına görə Qriqorisin babası Qriqori hələ IV əsrdə bu vilayəti öz şəxsi mülkünə çevirmişdi.

Qeyd etməliyik ki, Qriqoris burada dəfn edildikdən sonra bu dərədə xüsusi dini obyektə ehtiyac yaranmış və bu məqsədlə böyük bir mə'bəd inşa edilmişdir. Yalnız bundan sonra mə'bədətrafı ərazi şəhərə çevrilmişdir. VI—VII əsrlərdə Amaras özünün çiçəklənmə dövrünü keçirmişdir. Onun məbədi isə Şərq xristianlığında görkəmli bir mövqe tutmuşdur. Hətta Alban çarı III Vaçaqan belə bu mə'bədin ziyarətinə gəlmiş və salnaməçinin yazdığına görə 1 kilometrə yaxın məsafəni piyada, sürünə-sürünə getmişdir. VII—VIII əsrlərdə Amaras şəhəri və

onun mə'bədi dövlət işlərində də xüsusi mövqe tutur. Ölkənin bu və ya digər işləri üçün çağırılmış istər dini, istərsə də dünyəvi məclislərdə Amarasın baş kahini hökmən iştirak edirdi.

IX əsr Amarasın həyatında siyasi hadisələrlə dolu olan bir dövrdür. Bu dövrdə Amaras gah Beyləqan hakimlərinin, gah da Şəki hakimlərinin ixtiyarına keçirdi.

836-cı ildə isə məşhur xalq hərakatının başçısı Babək öz qoşunları ilə məhz Amarasda yerləşmişdi. Elə bu dövrdən də Amaras məxsus olduğu Haband vilayətinn mərkəzinə çevrilir. IX əsrdən XIII əsrə kimi Amarasın həyatında əsaslı bir dəyişiklik baş verməmişdir. Yalnız XIII əsrdə şəhər monqollar tərəfindən dağıdılır və bundan sonra o inzibati və siyasi əhəmiyyətini itirirsə də dini ibadətgah kimi bu günə qədər yaşayır.

## BİR MÜNAQİŞƏNİN TARİXÇƏSİ

Qədim alban vilayətləri olan Qarqar, Haband, Uti və Arsaxın əsasında feodal hökmdarlığı kimi meydana gəlmiş Qarabağın orta əsr tarixi, onun etnik tərkibi o bütövlükdə ərazinin mənsubiyyəti müasir tarixşünaslıqda ziddiyyətli və bə'zən də birtərəfli işıqlandırılmışdır. Bunun da başlıca səbəbi odur ki, əksər tədqiqatçılar Qarabağ tarixini işıqlandırarkən, dəfələrlə ayrı-ayrı feodal nəsillərinin mənafeyinə uyğun yayılmış və siyasi vəziyyətlərdən asılı olaraq ciddi dəyişikliklərə mə'ruz qalmış, beləliklə də ardıcıl olaraq saxtalaşdırılmış erməni kilsə tarixçilərinin əsərlərinə əsaslanmışlar. Bu baxımdan indiyə qədər elmdə hakim olan iki fikri bir qədər dəqiqləşdirməyi lazım bilirik. Həmin fikirlərdən biri budur ki, guya qədim Azərbaycanın bir çox vilayətləri kimi Qarabağ ərazisi də hələ eramızdan əvvəl II əsrdə Erməni çarı I Arçaşes (189—160 illər) tərəfindən işğal edilərək Ermənistana qatılır və həmin vaxtdan Kür çayı Albaniya və Ermənistanın sərhədi e'lan olunur. Bu fikri söyləyərkən tədqiqatçılar Strabonun «Coğrafiya» əsərinin XI kitabına əsaslanmışlar. Bu ideyanın əsas tərəfdarlarından biri olan S. T. Yeremyan yazmışdır: «Sağ sahil Albaniyası (Uti və Arsax vilayətləri) demək olar ki, altı yüz il (387-ci ilə kimi) mərkəzləşmiş, quldarlıq dövləti olan Böyük Ermənistanın tərkibində olduğundan ümumi erməniləşmə prosesinə mə'ruz qalmışdır. Arsax vilayəti artıq IV—V əsrlərdən erməniləşdirilmiş, Uti vilayətinin əsas hissəsində isə erməniləşmə prosesi VI əsrdə başa çatmışdır». Bu fikri əsas tutan müasir erməni tarixçiləri (həm də nəinki tarixçilər, demək olar ki, bütün erməni ziyalıları) belə hesab edirlər ki, Qarabağ ərazisi, burada mövcud olan tarix və mədəniyyət abidələri, bütünlükdə Ermənistana məxsus olub onun ayrılmaz bir hissəsidir.

Əlbəttə, bu fikir albanşünas tədqiqatçıların diqqətini cəlb etməyə bilməzdi. Bu baxımdan Strabonun adı çəkilən kitabın mətni diqqətlə nəzərdən keçirildi, mə'lum oldu ki, I Artaşesin işğal etdiyi vilayətlər içərisində nə Qarqar, nə də Uti

(sağsahil Utisi) və nə də Arsaxın adı çəkilir. Ən maraqlısı isə budur ki, Strabonun tərcüməçiləri hələ XIX əsrin sonunda ermənlərin tə'siri ilə onun «Coğrafiya» əsərini saxtalaşdırmış və Artaşesin işğal etdiyi vilayətlərin siyahısı qəsdən Albaniyanın bir neçə vilayətinin adını əlavə etmişdir.

Aparılan axtarışlar nəticəsində mə'lum olmuşdur ki, yuxarıda göstərilən tədqiqatçıların fikirlərinin elmi həqiqətlə heç bir əlaqəsi yoxdur və bunlar sadəcə olaraq uydurmadır.

Bəs həqiqət necədir? Aşağıda görəcəyimiz kimi yazılı mənbələr araşdırılarkən Qarabağın cəmi 16 il (371-ci ildən 387-ci ilə kimi) Ermənistanın tərkibində olması müəyyənləşdirilmişdir. Bizans dövlətinin köməyi ilə erməni çarlığı xüsusi hiylə işlədərək 371-ci ildə Qarabağı işğal etmiş, 16 il keçdikdən sonra isə Albaniya və Massaget çarlığının və Sasanilərin köməyi ilə Qarabağı yenidən öz ərazilərinə qatmışdılar.

Xilafətin Azərbaycanı işğalından sonra Qarabağın düzən hissəsində müsəlmanlıq yayılmağa başlayır. Dağlıq hissədə yaşayan əhali isə öz köhnə dinində, yə'ni xistianlıqda qalır və 705-ci ildə çağırılmış Bərdə məclisinin qərarı ilə Alban xristianlarının bir hissəsi erməni qriqorian kilsəsinə tabe edilir. Həmin vaxtdan başlayaraq Dağlıq hissəsində qriqorianlaşma prosesi başlayır. Buna baxmayaraq XII əsrdən başlayaraq Qarabağın dağlıq hissəsində yenidən alban ən'ənələri canlanır və nəticədə burada Xaçın feodal hökmdarlığı formalaşır, həmin hökmdarlıq qədim alban abidələrini xüsusilə kilsələrin əksəriyyətini bərpa etdirir və yeni-yeni mə'bəd kompleksləri tikdirir.

Ümumiyyətlə, Qarabağ ərazisi orta əsrlərə aid müxtəlif tipli arxeoloji abidələrlə olduqca zəngindir. Bunun da səbəbi bir tərəfdən Qarabağın əlverişli təbii coğrafi şəraitə malik olmasıdırsa, digər tərəfdən də, IV əsrdən başlayaraq bütün Albaniyada (qədim Azərbaycanda) olduğu kimi burada da bir sıra iqtisadi, ictimai-siyasi və dini dəyişikliklərin baş verməsidir.

Məhz IV əsrdən başlayaraq, artıq Qarabağ ərazisində feodal münasibətləri formalaşır və xristianlıq feodalizmin əsas ideologiyası kimi dövlət dininə çevrilir. Bütün ilk orta əsrlər dövründə Qarabağ ərazisində feodalizm üçün xarakterik olan müxtəlif növlü abidələrlə yanaşı dini ideoloji baxımdan olduqca rəngarəng abidələr kompleksinə də təsadüf olunur. Bunun da başlıca səbəbi ondan ibarətdir ki, ilk orta əsrlərdə yerli əhalinin ideologiyasında ciddi pərakəndəlik mövcud olmuşdur. Bir tərəfdən əhalinin aşağı təbəqəsi arasında hələ də ibtidai dini təsəvvürlər sisteminin qalıqları güclü idi, digər tərəfdən isə xristianlıq dininin özünün daxilində üç cərəyan arasında (monofizitlər, diofizitlər və nestorianlar) ciddi mübarizə gedirdi. Nəhayət, bütün Azərbaycanın olduğu kimi Qarabağın da VII əsrdə ərəblər tərəfindən işğalından sonra əhalinin əsas hissəsi arasında islam dininin yayılması üçün hər cür şərait yarandı. Qarabağın dağlığ hissəsində yaşayan və nisbətən azlıqda qalan xristian əhalisi isə öz dini taleyini erməni Qriqorian kilsəsinə bağlamalı oldu. Beləliklə, IX—X əsrlərdən başlayaraq Qarabağın dağlıq hissəsində

yaşayan yerli əhali arasında ermənidilli epiqrafik abidələr, düzən hissədə ərəb-fars dilli epiqrafik abidələr yayılmağa başlayır. Buna müvafiq olaraq düzən hissədə müsəlmanlılıq dağlıq hissədə isə Şərq xristianlığına məxsus abidələr yaranır.

Ümumiyyətlə, orta əsrlərə aid Qarabağın abidələrindən danışarkən onu üç mərhələyə bölmək olar:

I dövr—ilk orta əsrləri, II dövr—IX—X əsrləri, III dövr isə—XIII əsr və ondan sonrakı dövrləri əhatə edir.

Əgər I dövr bu ərazidə bir sıra möhtəşəm şəhərləri o cümlədən Bərdə, Amaras, Vatçar, Aluen, Çarabert və başqa qalaların yaranması ilə xarakterizə edilirsə, II dövr feodalizmin sür'ətli inkişafı dövrünə təsadüf etməklə əsasən, feodal qəsrlərinin, o cümlədən Laçınqala, Oğlanqala, Qarqar qalası kimi şəhər-qalalarının meydana gəlməsi ilə fərqlənir. Nəhayət, III dövr Qarabağda, xüsusilə onun dağlıq hissəsində Alban ən'ənələrinin yenidən canlanması ilə səciyyələnir. Bu isə həmin ərazidə Mehranilər sülaləsinin davamçıları tərəfindən idarə olunan Xaçın feodal hökmranlığının yaranması və kilsə tikintisinə geniş meydan verilməsi ilə bağlıdır. İnkişaf etmiş orta əsrlərdə kilsə me'marlığının ən möhtəşəm abidələri olan Xəznə (Qandzasar), Xotavəng, Müqəddəs Yelisey, Amaras və s. kimi mə'bəd-monastır komplekslərinin yaranması ilə diqqəti cəlb edir. Doğrudur, bu abidələrin bir qismi hələ ilk orta əsrlərdə yaranmışdırsa da lakin onlar ikinci, təkmil həyata məhz XII—XIII əsrlərdən başlamışdır.

## «ARRANIN ANASI»

Hələ antik dövrdən Qarabağda bir çox şəhərlər yaranmışdır. Onların bə'ziləri əvvəlcə hərbi məqsəd üçün tikilmiş, bə'ziləri ticarət yolu üzərində məntəqə rolunu oynamış, bir neçəsi bu və ya digər hökmdarın iqamətgahı olmuş, bə'ziləri isə sənətkarlıq mərkəzləri kimi meydana gəlmişdir. Lakin elə şəhərlər də olmuşdur ki, yuxarıda göstərdiyimiz bütün əlamətləri özündə birləşdirmişdir. Yə'ni o həm iqamətgah, həm hərbi qala, həm ticarət mərkəzi, həm də möhtəşəm sənətkarlıq mərkəzi olmuşdur. Belə şəhərlərdən biri də Bərdə idi. Bərdə haqqında mə'lumat verən IX əsr ərəb tarixçisi İbn Havqəl onu «Bu ölkənin ən yaxşı şəhəri və Arranın anası» adlandırmışdır. Doğrudan da Bərdə təbii cəhətdən gözəl, saf havalı bir ərazidə salınmışdır. Bərdənin adı bir çox xalqların dilində müxtəlif formalarda—Bardos, Bərdaa, Firuzabad, Şəhristan, Partava və s. kimi işlənmişdir.

Tarixi qaynaqlara görə, Bərdə Qəbələ şəhərindən sonra Azərbaycanın (Albaniyanın) ikinci paytaxtı olmuşdur. Bu hadisə belə olmuşdur. V əsrdə Azərbaycanı işğal etmiş İran Sasaniləri öz canişinləri üçün Qafqaz Albaniyasında yeni iqamətgah axtarırdılar. Onların axtardıqları iqamətgah təhlükəsiz bir yerdə, Zaqafqaziyadan keçən mərkəzi ticarət yollarının üzərində və İranla lazımi əlaqə saxlamaq üçün nisbətən əlverişli bir yerdə olmalı idi. Bütün bu tələblərə Bərdə şəhəri cavab verdiyindən, yuxarıda göstərdiyimiz kimi Sasanilər ölkənin mərkəzini

Qəbələdən Bərdəyə köçürürlər. V əsrin əvvəllərindən e'tibarən baş vermiş bu hadisədən sonra Bərdə nəinki Albaniyanın, eləcə də bütövlükdə Sasani imperiyasının ən möhtəşəm şəhərlərindən biri oldu.

Bütün orta əsrlər boyu qocaman Şərqin ən möhtəşəm şəhərlərindən biri olan Bərdə nə vaxt və kimlər tərəfindən salınmışdır? Bu suala indiyə kimi dəqiq çavab tapılmamışdır. İstər orta əsr mənbələri, istərsə də bu mənbələr üzərində tədqiqat aparmış tarixçilər şəhərin bina edilməsi tarixi haqqında müxtəlif fikirdə olmuşlar. Misal üçün VII əsrdə yaşamış yerli tarixçi Moisey Kalankatlı göstərir ki, Bərdə şəhəri Alban hökmdarı Vaçe tərəfindən Sasani hökmdarı Firuzun dövründə (459—484) bina edilmişdir. Fars tarixçisi Həmdullah Qəzvini isə şəhərin tikilmə tarixini daha qədimlərə aparır. Onun fikrincə bu şəhər ilk dəfə Makedoniyalı İsgəndər tərəfindən tikilmiş, sonralar isə Sasani hökmdarı Qubad tərəfindən genişləndirilmişdir. Əlbəttə, bu fikir yanlışdır. Ona görə ki, tarixi faktlar nəticəsində qəti müəyyən olunmuşdur ki, Makedoniyalı İsgəndər heç vaxt Azərbaycanda olmamışdır.



Şəhərin tikilməsi tarixi haqqında ərəb müəllifi əl-Bəlazurinin fikri diqqəti daha çox cəlb edir. O, yazmışdır ki, Sasani hökmdarı Qubad (484—531) Arranda bütün ölkənin baş şəhəri olan Bərdəni tikdirdi. Arxeoloji tədqiqatlar bu fikrin də yanlışlığını sübut edir. Əvvəla nəzərə almaq lazımdır ki, Sasanilər ölkənin paytaxtını Bərdəyə köçürəndə artıq Bərdə şəhəri mövcud idi. Digər tərəfdən qazıntılar zamanı Bərdədə antik dövrə aid zəngin mədəni təbəqə aşkar olmuşdur. Şəhərin tikilməsi haqqında fikir söyləyənlərin bir qrupunu onun Məhəmməd Marağı adlı bir şəxs tərəfindən ərəb xəlifəsi Əbdül Məlik ibn Mərvanın (685-705) dövründə tikildiyini iddia edirlər ki, bu fikrində də heç bir həqiqət yoxdur. Eyni bir yanlış fikrin tərəfdarları isə şəhəri 704-cü ildə Əbdül Əziz ibn Hatəm tərəfindən tikildiyini söyləyirlər.

Bütün bu göstərilənlərdən aydın olduğu kimi şəhərin tikilməsi haqqında vahid fikir yoxdur. Əlbəttə bu barədə qəti fikir qədim Bərdənin xarabalığında arxeoloji tədqiqatlardan sonra söyləmək mümkündür. Son illərdə şəhərin qədim xarabalığında aparılan qazıntı işləri zamanı aşkar edilmiş xeyli maddi mədəniyyət qalıqları, xüsusilə oradan tapılmış pul dəfinələri gil qab numunələri sübut edir ki, Bərdə şəhərinin yerində hələ antik dövrdə möhtəşəm yaşayış olmuşdur.

Mənbələrin göstərdiyi kimi bu şəhər birdən-birə əmələ gəlməmiş və Azərbaycanın bir çox başqa şəhərləri kimi Bərdə də özündən əvvəlki möhtəşəm bir yaşayış məskəninin zəminində yaranmışdır, həm də çox ehtimal ki, V əsrdə oranın paytaxta çevrilməsi ilə əlaqədar olaraq Alban hökmdarı Vaçe və Sasani hökmdarı

Qubad tərəfindən şəhərin ərazisi bir qədər genişləndirilmiş və orada yeni tikinti işləri aparılmışdır. Yəqin ki, elə buna görə də şəhərin tikilməsi tarixini əksər tədqiqatçılar V əsrə aid edirlər.

Azərbaycanda bir çox hadisələrin şahidi olmuş Bərdə şəhərinin quruluşu, onun iqtisadi əhəmiyyəti, təbiəti və Yaxın Şərqin şəhərləri içərisində onun mövqeyi haqqında da mənbələrdə olduqca maraqlı və elm üçün qiymətli mə'lumatlar vardır. Mənbələrin verdiyi mə'lumata görə VII—IX əsrlərdə Bərdə şəhərinin eni və uzunluğu 5—6 km olub, ətrafına möhtəşəm qala divarları çəkilmişdir. Dəmirdən böyük darvazaları olan bu qala divarları o dərəcədə möhtəşəm olubdur ki, ciddi təhlükələr zamanı nəinki şəhərin öz əhalisi, hətta bütün ətraf ərazinin əhalisi də düşməndən müdafiə olunmaq üçün buraya pənah gətirirlərmiş. Həmin dövrdə Bərdədə 100 mindən çox adam yaşayırmış. Şəhərdə 4 böyük bazar, xüsusi sənətkarlıq məhəllələri, bir neçə hamam və Şərq me'marlığı üslubunda tikilmiş çoxlu dini və ictimai binalar mövcud olmuşdur. Həmin dövrdə Bərdədə mövcud olmuş sikkəxanada müxtəlif hökmdarların adına mis, gümüş və qızıl pullar kəsilmişdir. Bərdə şəhərinin tarixi ilə tanış olmaq üçün bu barədə qədim müəlliflərin bə'zi fikirlərini göstərmək kifayətdir.

X əsrdə yaşamış ərəb coğrafiyaşünası İstəxri bu barədə yazmışdır: «O ki qaldı Bərdəyə, şəhərin eni və uzunu bir fərsəx (5—6 km) olan böyük sağlam təbiətli, getdikcə çiçəklənən, olduqca bol meyvəsi və geniş əkin sahəsi olan bir şəhərdir.

İraqda və Xorasanda, Reydən və İsfahandan sonra öz yerinin gözəlliyinə və meyvələrinin bolluğuna görə, həmişə inkişaf etməkdə olan Bərdə qədər əhəmiyyətli bir şəhər yoxdur. Bərdənin Kürd darvazaları yanında «Əl-Kürkü» adlanan bir fərsəx boyda bazarı vardır, hər bazar günlərində buraya çoxlu adam gəlir. Gələnlərin içərisində xarici ölkələrdən, xüsusilə İraqdan daha çox adam olurdu. Bu bazarda çoxlu ipək mallar olardı. Bərdə ipəyi İrana və Xuzistana ixrac edilərdi.

Suriyada olduğu kimi, Bərdədə də xəzinələr məscidlərin yanında olurdu. Xəzinə binaları bir qayda olaraq sütunu, dəmir qapısı və möhkəm damı olan tikintidən ibarət olurdu. Bərdədə hökumət sarayı da məscidin yanında inşa edilmişdir. Bazarlar isə şəhərin kənarlarında yerləşirdi. Bərdənin üçdə bir fərsəxliyindən Kür çayı axır. Kür çayı özünün müxtəlif növlü balıqları ilə məşhur idi və bu balıqların böyük bir qismi duzlanaraq xaricə ixrac olunurdu».

Başqa bir müəllif — əl-Müqəddəsi isə yazır ki, «Bərdə—baş şəhər olduqca böyük və gözəl olub, bu vilayətin Bağdaddır». Müəllifi mə'lum olmayan «Hüdud-əl-Aləm» adlı qədim bir əlyazmasında isə Bərdə haqqında deyilir: «Bərdə olduqca böyük şəhərdir, orada çoxlu ne'mət var. O, Arranın paytaxtı, Arran vilayətləri hakimlərinin iqamətgahıdır. Bərdənin ətrafında həmişə becərilən bərəkətli torpaqlar, geniş tarlalar, zəmilər, bol meyvə bağları vardır. Orada yol boyu bitmiş çoxlu tut ağacları vardır. Bu şəhərdən ipək, qırmızı rəngli qəşəng parça, şabalıd və

hil ixrac edilirdi». X əsrdə yaşamış əl-Bəlazuri isə şəhərin ətrafında çoxlu kəklik, turac, kol xoruzu və digər quşların varlığı və onların ovlanması haqqında maraqlı mə'lumat verir.

Bərdənin əsl mənzərəsini böyük Azərbaycan şairi Nizami Gəncəvi özünün «İsgəndərnamə» əsərində belə təsvir etmişdir:

«Bərdə nə gözəldir, necə qəşəngdir!
Yazı da, qışı da güldür, çiçəkdir.
İyulda dağlara lalələr səpər,
Qışını baharın nəsimi öpər,
O yaşıl meşəsi cənnətə bənzər,
Şən ətəklərinə bağlanmış kövsər.
Söyüdlük çöllərə vermişdir zinət,
O, «Baği-Səfid»i elə bir cənnət.
Qırqovul yuvası hər sərv ağacı,
Oxuyur kəkliyi, ötür turacı...»

Tarixi faktlar göstərir ki, Bərdənin ən çiçəklən vaxtı IX-XII əsrlər olmuşdur. Bu dövrdə Bərdə Azərbaycanın nəinki inzibati və dini, həm də bu dövrdə bütün Azərbaycanın iqtisadi mərkəzinə çevrilmişdir. Qərb ilə Şərq və Şimal ilə Cənub ticarət yollarının üzərində yerləşən Bərdəni orta əsrlərdə Şərq ticarətinin düyün nöqtəsi adlandırırdılar. Qeyd etməliyik ki Bərdə şəhəri bir sıra səbəblərdən bir neçə dəfə öz yerini dəyişmişdir. Bunun bir səbəbi, Tərtər çayının coşğun selləri, digər səbəbi isə xarici basqınlar olmuşdur. Ciddi elmi axtarışlar nəticəsində müəyyən edilmişdir ki, Bərdə indiki yerinə XII—XIII əsrlərdən sonra gəlmişdir. Əvvəllər isə bir qədər qərbdə olmuşdur. Hazırda Bərdə şəhərində cəmi iki ədəd yerüstü abidə mövcuddur. Onlardan biri yerli əhali arasında Nüşabə qülləsi adlanan abidədir. Nəzərə almaq lazımdır ki, öz dövrünün gözəl me'marlıq əsəri olan bu abidə heç də Nüşabə tərəfindən tikilməmişdir. Hər şeydən əvvəl Nüşabənin bir şəxsiyyət kimi mövcud olub-olmaması elmi cəhətdən hələ mə'lum deyildir. Digər tərəfdən isə həmin abidədəki yazı onun XIII əsrdə bina edildiyini sübut edir. Bu abidə iki mərtəbə olub, birinci mərtəbəsindən silah anbarı kimi istifadə edilmişdir. Onun şirli kərpiclərlə bəzədilmiş ikinci mərtəbəsi isə elə tikilmişdir ki, bütün istiqamətlərdə orada «allah» sözü oxunur. Bərdədə mövcud olan ikinci abidə yerli əhali arasında «İmamzadə» adlanan məscid kompleksidir.

XVIII əsrdə tikilmiş bu abidə də müsəlman me'marlıq üslubunun bir çox incilərini özündə birləşdirmişdir. Qeyd etməliyik ki, yerli əhali—orada imam övladı dəfn olunub,—deyə həmin abidəni dini ibadətgaha çevirmişlər. Qalan yerüstü abidələr məhv edilmişdir. Bərdədə hələlik arxeoloji tədqiqatlar geniş miqyasda aparılmadığından onun yeraltı abidələri haqqında ətraflı fikir söyləmək mümkün deyil. Yalnız onu göstərməliyik ki, hazırda aşkar olunmuş qalıqlar

Bərdədə vaxtilə möhtəşəm ictimai bina komplekslərinin, kanalizasiya sistemlərinin və xüsusi gil tünglərlə çəkilmiş su təchizatı komplekslərinin, dulusçuluq, metalişləmə, zərgərlik, misgərlik və s. sənət sahələrinin təmsil olunduğu iri şəhərlərdən biridir. XIV əsrdə ölkənin paytaxtı Gəncə şəhərinə köçürüldükdən sonra Bərdə öz inzibati və siyasi əhəmiyyətini tədricən itirsə də, yenə də mühüm bir ticarət və sənətkarlıq mərkəzi olaraq qalır.

## «ADSIZ ŞƏHƏR»

1958-ci ilin fevral ayında Azərbaycan EA Tarix İnstitutuna bir məktub gəldi. Məktubun müəllifi baytar həkimi Abbas Haqverdiyev idi. O, öz məktubunda Ağdam rayonunun Sofulu kəndində möhtəşəm bir abidənin xarabalığını təsvir edir və bu barədə öz mülahizələrini söyləyirdi. Abidə ilə tanış olmaq üçün respublikamızın bir qrup tarixçi alimi həmin kəndə getdi və abidə ilə tanış olduqdan sonra onun ərazisində arxeoloji tədqiqat işlərinin aparılması qərarına gəldi.

Aparılan arxeoloji tədqiqat işləri öz səmərəli nəticələrini verdi. İndiyə kimi elmə mə'lum olmayan daha bir şəhər aşkar edildi.

Bu şəhərdən hazırda yer üstündə heç bir əlamət yoxdur. Lakin axtarışlardan sonra aydın oldu ki, onun ərazisi təxminən 60—70 hektarlıq bir sahəni əhatə edir.

Şəhərin bir hissəsinə yerli əhali Govurqala deyir. Məhz bu hissə şəhərin mərkəzi, daha doğrusu onun narınqalası olmuşdur. Ətraf ərazidən 6—8 m yüksəklikdə üstü düz bir təpədə yerləşən narınqalanın ümumi sahəsi 3 ha yaxındır. Təpədə aparılan yoxlama işləri göstərdi ki, torpağın altı ictimai və dini binalarla zəngindir. Govurqalanın tikintisində yerli əhəngli ağ daşdan istifadə edilmişdir. Burada orta əsrin ən böyük mə'bədlərindən birinin xarabalığı aşkar edilmişdir. Bir nefli inşa edilmiş bu mə'bədin hörgüsündə 1,5 m uzunluğu, 1,2 m isə eni olan iri sal daşlardan istifadə edilmişdir. Əksər hallarda daşların çöl üzü müxtəlif həndəsi və dini naxışlarla bəzədilmişdir. Mə'bədin döşəməsi də gözəl yonulmuş daşlardan ibarətdir. Bə'zi döşəmə daşlarının üzəri müxtəlif cizgilərlə naxışlanmışdır. Mə'bəd və onun ətrafında toplanmış maddi mədəniyyət qalıqları nəticəsində müəyyən edilmişdir ki, şəhərdə dulusçuluq, metaişləmə və daşişləmə sənətkarlığı öz dövrünün yüksək inkişaf səviyyəsinə çatmışdır. Şəhər əhalisini içməli su ilə təchiz etmək üçün vaxtilə buraya xüsusi gil tünglər vasitəsilə «Dərə arası» adlanan yerdə (bura şəhər xarabalığından təxminən 5—6 km şimaldadır) bulaq suyu çəkilmişdir. Şəhərin ətrafı möhtəşəm qala divarları ilə əhatə olunmuşdur. Buradan aşkar olunmuş bir qəbir daşının yazısından aydın olur ki, yuxarıda bəhs etdiyimiz mə'bəddə bir sıra müqəddəs şəxslərlə yanaşı, Alban çarının qardaşı da dəfn edilmişdir. Bir qayda olaraq bura orta əsr qəbirlərinin əksəriyyəti iri daş sənduqələrdən ibarət olub, daşın içərisi böyük ustalıqla çıxarılmış, ağzına eyni daşdan gözəl qapaq düzəldilmişdir. Deyilənlərlə yanaşı şəhərin ərazisindən antik

dövrə aid möhtəşəm tikinti qalıqları da qeydə alınmışdır. Mə'lum olmuşdur ki, şəhərin yerində yaşayış hələ antik dövrdən mövcud olmuş və sonrakı əsrlərdə böyük bir şəhərə çevrilmişdir.

Təbiidir ki, alimləri bu şəhərlə əlaqədar düşündürən ən mühüm məsələlərdən biri onun tarixi adını tapmaq idi. Lakin bu olduqca çətin idi.



**Zoomorf əşyalar və şüşə qab. Antik dövr.**

Alimlərin bə'zisi buranı qədim Yunan şəhərinin xarabalığı hesab edirdilərsə də onların əlində heç bir əsaslı dəlil yox idi. Ona görə də həqiqəti aşkar etmək üçün bir sıra vasitələrdən, o cümlədən Sofulu kənd ərazisinin tarixi toponimikasından, qədim tarixçi, coğrasfiyaşünas və səyyahların qeydlərindən istifadə etmək lazım idi. Axı belə bir möhtəşəm şəhərin adı hökmən bir yerdə qalmalı idi.

Doğrudur hələ tam sübut olunmasa da bə'zi materialların araşdırılması belə bir fikir söyləməyə imkan verir ki, haqqında danışdığımız şəhər orta əsrlərdən Azərbaycan hökmdarlarının yay iqamətgahlarından biri olan Aluen şəhərinin xarabalığıdır. Aluen şəhəri ölkəmizdə bir sıra mühüm tədbirlərin mərkəzi olmuşdur. Bu şəhərdə orta əsrlərin ən böyük məclislərindən biri çağırılmışdır. Mə'lumdur ki, V—VI əsrlər, bütün Azərbaycanda olduğu kimi Qarabağ əhalisinin də mə'nəvi mədəniyyətində ziddiyyətli bir dövr təşkil edir. Bu dövrdə də ölkədə vahid din kimi qəbul edilmiş xristianlıq bir tərəfdən qədim dini qalıqlara, digər tərəfdən Sasanilər tərəfindən yayılmaqda olan zərdüşt dininə qarşı mübarizə aparırdı. Lakin ən dəhşətlisi o idi ki, xristianlıq dininin özündə ciddi parçalanma əmələ gəlmiş və Zaqafqaziyada onun müxtəlif təriqətləri (monofizit, diofizit və nestorian) yaranmışdır. Bu təriqətlər də bir-biri ilə ciddi mübarizə aparırdı. Beləliklə, ölkədə bir növ dini hərc-mərclik dövrü hökm sürürdü. Hamı ölkə başçılarından bu ziddiyyətlərə son qoymağı tələb edirdi.

Salnaməçinin yazdığına görə, hətta ölkənin iri feodalları da din hərc-mərcliyindən narazı idilər.

Belə bir şəraitdə ölkənin bir sıra iqtisadi, siyasi və mə'nəvi vəziyyətini müzakirə edib, ümumi bir qərara gəlmək üçün xüsusi məclis çağırmaq zərurəti meydana çıxdı. Bu vaxt alban hökmdarı III Vaçaqan (487—510) idi. O, Bərdədə otururdu. 488-ci ilin may ayında Vaçaqan özünün yay iqamətgahlarından biri olan Aluendə böyük məclis çağırdı. Məclisə ölkənin bütün ali din xadimləri ilə birlikdə, ən iri feodallar da də'vət olunmuşdu. Onlar Dərbənddən, Qəbələdən, Şamaxıdan və

digər yerlərdən Qarabağa, Aluenə gəldilər. Məclisdə Vaçaqanın arvadı və oğlu da iştirak edirdi.

Ölkənin siyasi tarixində mühüm rol oynamış bu məclisin qərarından danışmazdan əvvəl, göstərməliyik ki bütün tarix ədəbiyyatında da Aluenin indiki Ağdam rayonu ərazisində olduğu göstərilir. Alimləri bu qənaətə gətirən səbəb budur ki, həmin məclis haqqında mə'lumat verən orta əsr tarixçiləri göstərirlər ki, Aluen Bərdənin yaxınlığında idi.

Lakin Aluenin dəqiq yeri indiyə kimi heç kəsə mə'lum deyildir. Bərdə və Ağdam rayonları ərazisində aparılan axtarışlar nəticəsində mə'lum oldu ki, bu ərazilərdə Govurqaladan başqa belə bir şəhəri xatırladacaq abidə yoxdur. Digər tərəfdən isə Aluen məclisindən təxminən 150 il sonra, yə'ni VII əsrdə yaşamış erməni coğrafiyaşünası Şiraklı Anani Zaqafqaziyaya aid tərtib etdiyi atlasında Aluen şəhərinin indiki Xaçın çayının orta axarında, onun sol sahilində olduğunu göstərmişdir ki, bu da haqqında danışdığımız şəhər xarabalığının yeri ilə uyğun gəlir. Deyilənlərə bunu da əlavə etmək lazımdır ki, Govurqalanın yaxınlığındakı bir ərazi indi də «Əlvənd» dərəsi adlanır ki, bu da çox güman Aluen sözünün qismən dəyişilmiş formasıdır.

Nəhayət, 1967-ci ildə əldə edilmiş bir mə'lumatı da bu faktlara əlavə etmək lazımdır. Həmin ildə Tərtər dərəsində aparılan arxeoloji tədqiqatlar nəticəsində Kəlbəcər rayonu ərazisində, Tərtər çayının sol sahilində, Xotavəng mə'bədi abidələri kompleksindən əldə edilmiş üzəri zərif naxışlanmış bir ədəd yazılı daş örənilmişdir. Həmin yazıda göstərilir ki, bu daş Aluendən gətirilmişdir. Daşın növü yoxlanılarkən aydın oldu ki, o Govurqala yaxınlığındakı Bozdağ daş mə'dənindəndir. Yeri gəlmişkən göstərməliyik ki, bir sıra başqa şəhərlərdə olduğu kimi Aluen də ətraf ərazi ilə birlikdə bə'zən vilayət adlanmışdır.

Beləliklə, yuxarıda göstərdiyimiz faktlar əsasında Govurqala ilə zəmanəmizə qədər gəlib çatmış şəhər xarabalığının Aluen olması ehtimalına gəlmək olar.

Alban hökmdarının qardaşının da burada dəfn olunması bunu bir qədər sübut edir.

Yeri gəlmişkən orta əsrlərin ümumölkə miqyaslı böyük məclisi olan Aluen məclisinin qərarları ilə tanış olmaq zəruridir. Məclisin gündəliyində duran başlıca məsələ ölkədə dini hərc-mərcliyə son qoymaq, din xadimləri ilə dünyəvi feodallar arasında baş vermiş münaqişələrə son qoymaq və ölkədə fəaliyyət göstərən, həmçinin hökmdarın əsl dayağı olan kilsələrin iqtisadi əsasını möhkəmləndirməkdən ibarət idi.

Məhz bu məsələlər ətrafında məclis 20-yə yaxın maddədən ibarət xüsusi qərar qəbul etdi və bu qərarı məclis iştirakçılarının böyük əksəriyyəti imzaladı.

Qərara əsasən, ölkədə hamı xristianlığa vahid din kimi itaət etməli, müvafiq qanuna uyğun olaraq xalq kilsə xeyrinə vergilər verməli, məhkəmə işlərinə ölkənin ali ruhaniləri baxmalı idi.

Həmçinin məclisin qərarında yaxın qohumla evlənmək, qeyri dinlərə sitayiş etmək, əsaslı səbəb olmadan arvad boşamaq və yenisini almaq qadağan olunmaqla, bu şərtləri pozanlar ölümlə hədələnirdi. Qərara əsasən bir sıra dünyəvi qanunlar dinin ixtiyarına verilməklə həm, geniş əhali kütləsi üçün məcburi dini qaydalar e'lan edilirdi.

Beləliklə, Aluen məclisi ölkədə dini hərc-mərcliyə son qoymaq, dünyəvi feodallarla din xadimləri arasında ümumi əlaqə yaratmaq işində bir növ həlledici oldu.

## «DAŞA DÖNMÜŞ İNSANLAR»

Qarabağ ərazisində, xüsusilə düzən hissədə və dağ zirvələrində insan formasında hazırlanmış və ya üzərində insan təsviri həkk edilmiş daşlara təsadüf edilir. Yerli əhali arasında «Üç qızlar», «Çoban daşı», «Özündənbəy», «Gəlin qaya», «Qırxqız», «Hacı qəbri» və s. adlarla tanınan bu daşlar haqqında müxtəlif əfsanələr yaranmışdır. Həmin əfsanələr müxtəlif variantda olsa da onda bir mühüm ümumi cəhət vardır. O da ondan ibarətdir ki, guya allah bu və ya digər səbəbdən həmin adamları daşa döndərmişdir. Misal üçün Ağdam rayonu Salahlı Kəngərli kəndi ərazisində olan «Üç qızlar» haqqındakı əfsanəyə görə guya üç bacı olan bu qızlar boranlı bir gündə azırlar. Məhz bu yerdə onların üzərinə canavarlar hücuma keçir. Qızlar allaha yalvarırlar ki, onları xilas etsin. Allah isə bu qızları daşa döndərməklə, onları canavarlardan xilas edir.



**Daş heykəl (İlk orta əsrlərdə).**

«Gəlin qaya» haqqındakı əfsanədə isə zorla ərə verilmiş bir qızın taleyindən danışılır. Guya bu qız istəmədiyi nişanlısından xilas olması üçün allahdan onun daşa döndərilməsini xahiş etmiş və allah bu xahişi yerinə yetirmişdir.

Göründüyü kimi əfsanələrdə həqiqətə uyğun heç bir şey yoxdur.

Lakin bu növ daşlar Qarabağ ərazisində o qədər geniş yayılmışdır ki, istər-istəməz onlar tədqiqatçıların diqqətini cəlb edirdi. Hətta bir arxeoloji səfər zamanı Füzuli rayonunun Araz Dilağarda kəndi ərazisində arxeoloqların zarafatla «Bütlər sarayı» adlandırdıqları bir təpə açılmışdır ki, orada onlarla «daşa dönmüş insan» vardır. Bu daşlar üzərində aparılmış tədqiqat işlərindən aydın olmuşdur ki, onlar

Qarabağın qədim sakinlərinin ibtidai dini təsəvvür formalarından biri olan bütpərəstliyin məhsuludur.

Hələ eramızdan əvvəl I minilliyin ortalarından başlayaraq bütün Azərbaycanda olduğu kimi Qarabağda da əhali arasında ruhlara inam tədricən allaha inamla əvəz edilmişdir. İnsanlar bu dövrdə elə düşünürdü ki, guya təbiətdə hər şeyin öz allahı vardır. Bu allahları qədim Azərbaycan xalqı Şərqin bir sıra ölkələrindən fərqli olaraq, həmişə insan formasında düşünmüşlər. Bu hal eyni zamanda insanların özlərini ilahiləşdirilməsi kimi ibtidai təsəvvürlə də bağlı idi. Ona görə də eramızdan çox-çox əvvəl yaranmış bu təsəvvür antik dövrdə formalaşıb, bir növ hakim mövqe tutdu. Elə bu dövrdən Azərbaycanda, o cümlədən də Qarabağda çoxlu bütlər (allahlar) yaradıldı.



**Daş heykəl. İlk orta əsrlər.**

İnsan bütləri həm gildən kiçik formada, həm də daşdan iri həcmdə hazırlanırdı. Azərbaycanın bir çox yerlərindən tapılmış bütlər bir qayda olaraq sınmış halda aşkar edilmişdir. Həm də maraqlıdır ki, bütpərəstlik adəti üzrə dəfn edilmiş bir çox qəbirlərdə də oraya qoyulmuş bütlər sındırılmışdır. Dəqiq tədqiqatdan sonra aydın olmuşdur ki, bütlər müəyyən bir qanuna uyğunluqla sındırılmışdır. Yə'ni əksər bütlərdə qılça, qol və baş hissə kəsilmiş halda tapılmışdır. Tədqiqatçıların ehtimal xarakterli fikirlərinə görə bu bütlər qurban kəsilmişdir. Beləliklə, aydın olur ki, əvvəlcə insanlardan ibarət qurbankəsmə adəti eramızın ərəfəsində bütlərin qurban kəsilməsi adəti ilə əvəz edilmişdir.

Qeyd etməliyik ki, bütlərin sınıq halda tapılmasının digər səbəbi də, sonrakı illərin, yə'ni xristian islam dinlərinin özündən əvvəlki dinlərə qarşı mübarizə mövqeyi tutmasından irəli gəlmişdir.

Lakin bu mübarizəyə baxmayaraq eramızın IX—XI əsrlərinə kimi Qarabaqda bütpərəstlik adəti davam etmişdir. Lakin bu dövrdə Qarabağın dağlıq hissəsində (ərazidə yaşayan əhali əsasən həmin dövrdə xristian albanlardan ibarət idi) yaşamış ustalar daşdan hazırladıqları bütlərdə bir sıra dəyişikliklər edirdilər. Belə ki, bütləri xristianlar qırmasın deyə ona xristian dini əlamətləri verirlər. Yə'ni əvvəlki bütlərdən fərqli olaraq IX—XI əsrlərdə hazırlanmış bütlərin əlləri dirsəkdən bükülərək, heykəlin üzünə doğru qatlanmış halda təsvir edilir. Bu isə xristianlığın ilk döründə dəfn adətinin bir forması olmuşdur. Elə buna görə də hazırda bu növ bütlərin əksəriyyəti salamat qalmışdır. Xristianlara elə gəlirdi ki bütlər qəbirüstü abidə olub, mərhumun qəbirdəki vəziyyətini təcəssüm etdirir. Ona

görə də ona dəymirdilər. Halbuki arxeoloji tədqiqatlar nəticəsində aydın olmuşdur ki, həmin abidələr əsl bütlərin müəyyən dərəcədə dəyişilmiş formasından başqa bir şey deyildir.

Bütün deyilənlərdən aydın olur ki, yerli əhali tərəfindən daşa dönmüş insanlar adlandırılan bu abidələr bütpərəstlik dini təsəvvürün təcəssüm forması olub insanın özünü ilahiləşdirdiyi bir dövrün məhsuludur.

Onlar haqqında mövcud əfsanələrə gəlincə bu xalq tərəfindən yaradılmış və həqiqətlə əlaqəsi yoxdur.

## QAYA ÜSTƏ QALA

Hələ eramızın III əsrindən inkişaf etməyə başlayan feodal istehsal üsulu getdikcə Azərbaycanda torpaq sahələrinin ayrı-ayrı adamların əlində toplanmasına səbəb olurdu. Butün iri torpaq sahiblərinin vəziyyəti heç də həmişə eyni olmurdu. Onların bə'ziləri həddindən artıq varlanıb qonşu mülkləri də özünə tabe etmək və beləliklə də öz nüfuzunu genişləndirməyə çalışırdı. Bir başqalarının isə yararlı əkin sahələrinə zəruri ehtiyacı olduğundan, nisbətən zəif qonşusunun torpağını işğal etmək istəyirdi. Daha başqaları isə öz sürülərini otarmaq məqsədilə yeni-yeni otlaq sahələrini ələ keçirmək iddiasında olurdu. Bir sözlə, necə deyərlər, iki qoçun başı heç vaxt bir qazanda qaynamırdı, hərə özünü bir ağa hesab edən ayrı-ayrı feodallar, öz məqsədinə uyğun zəif qoşunları hesabına hakimiyyət dairəsini genişləndirməyə çalışırdı. Əlbəttə, bütün bunlar heç də asanlıqla başa gəlmirdi. Qonşuların mülkünü işğal etmək üçün çoxlu qurbanlar vermək lazım gəlirdi. Digər tərəfdən isə hər ehtimala qarşı, hər bir feodal öz ailəsinin və əyanlarının qayğısına qalmalı, feodal müharibələri zamanı onların tam təhlükəsizliyini tə'min etməli idi.

Buna görə də ayrı-ayrı feodallar öz iqamətgahlarının ətrafında bir sıra müdafiə tədbirləri görməklə yanaşı, əlavə olaraq, təbii cəhətdən əlçatmaz qayalar və ya dağlar üzərində möhtəşəm qalalar tikdirirdilər. Cəsarətlə demək olar ki, Azərbaycanda elə dağ keçidi yoxdur ki, orada möhtəşəm bir feodal qalası olmasın. Azərbaycanda, o cümlədən də Qarabağda ayrı-ayrı feodallara məxsus qalalarla yanaşı, ümumölkə əhəmiyyəti daşıyan qalalar da inşa edilirdi. Belə qalalar bir qayda olaraq ölkənin paytaxtı olan şəhərlərin yanında, hərbi-strateji baxımdan əlverişli bir yerdə tikilirdi. Beləliklə, ümumiyyətlə feodal şəhərlərini bu növ köməkçi qalalarsız təsəvvür etmək çətindir. Təsadüfi deyildir ki, bu məsələ əsrlər boyu yaranmış şifahi xalq ədəbiyyatında da öz əksini tapmışdır. Xalq bayatılarının birində deyilir:

Əziziyəm qalasız,
Şəhər olmaz qalasız.
İndi ki, mən gedəri oldum
Siz sağlıqla qalasız.

Adətən feodal şəhərləri yaxınlığında tikilmiş ümumölkə əhəmiyyətli qalalar bir çox xüsusiyyətləri e'tibarilə ayrı-ayrı feodallara məxsus qalalardan fərqlənirlər. Ümumölkə əhəmiyyətli qalalar nisbətən böyük olmaqla, onlarda daimi qoşun saxlanılır və silah istehsalı üçün e'malatxanalar olurdu. Xüsusi silah anbarları və ərzaq ehtiyatı saxlamaq üçün quyular qazılırdı. Orada daimi qoşun saxlanıldığından, bir çox ictimai binalarla yanaşı, yaşayış evləri də inşa edilirdi. Daimi, həm də gizli su ehtiyatları quyusu və s. düzəldilirdi. Beləliklə, ümumölkə əhəmiyyətli qalalar bir növ hərbi şəhərə çevrilirdi. Bu növ qalalar bu və ya digər səbəbdən öz hərbi əhəmiyyətini itirdikdən belə, möhtəşəm yaşayış yerlərindən birinə çevrilirdi.

Belə ümumölkə əhəmiyyətli qalalardan biri Bərdə şəhərinin təxminən 50—60 kilometrliyində, Tərtər çayı dərəsində tikilmiş Craberd qalası idi. Xarabalığı Ağdərə rayonunun Çardaxlı kəndi yaxınlığında olan bu qalanın adı haqqında bir neçə rəvayət vardı. Bə'ziləri bu sözün erməni dilində Sərt qala, bə'ziləri onun Crabert, yə'ni su ilə əhatə olunmuş qala, daha başqaları isə onun Carabert, yə'ni Car çəkilən yer mənası daşıdığını söyləyirlər. Lakin bizi onun adının mənşəyi ilə yanaşı, bu qalanın qədim Qarabağ tarixində, daha doğrusu Ümumazərbaycan tarixində oynadığı rol maraqlandırır.

Qala Torağay çayının Tərtər çayına töküldüyü yerdə çay səthindən təxminən 1500 m hündürlükdə sıldırım qayalıqdan ibarət bir yüksəklikdə bina edilmişdir. O, üç tərəfdən su ilə, dördüncü tərəfdən isə sıldırım sahili olan dağ yamacı ilə əhatə olunmuşdur. Qalaya vaxtilə iki yol olmuşdur ki, onların hər ikisi hazırda qalaya çıxmaq üçün yararsızdır. Yollardan biri Torağay çayının sərt sahili ilə, sıldırım qayaları yonub, bə'zi yerlərdə isə qayada kiçik pilləkənlər düzəltmək vasitəsilə əmələ gətirilmişdir ki, hazırda bu yol əsrlər boyu yağış sularının və digər təbii hadisələrin tə'sirindən tamamilə dağılmış, ancaq onun izi dövrümüzədək qalmışdır.

Qalaya gedən ikinci yol isə yeraltı olmuşdur. Yeraltı yolun gizli qalmasını tə'min etmək məqsədilə, onu Tərtər sularının daşla döydüyü bir sal qayadan başlamışlar. Sakinlər qayanın içərisini ovaraq düz qalanın cübbəxanasına (qalanın lap zirvəsində, yeraltı bir otaqdan ibarətdir) qədər böyük bir tunel qazmışdılar. Tunelin bə'zi yerlərində lağımın ətrafı daşla hörülmüşdü. Həmin tunel vasitəsilə qalaya çıxdıqda, ilk növbədə böyük bir otağa daxil olursan. İlk baxışda adama elə gəlir ki, bu otaqdan bayıra heç bir çıxış yolu yoxdur. Lakin diqqətlə baxdıqda otağın tavan hissəsinin ortasında bir adamın keçə biləcəyi dairəvi bir deşiyin açıldığı mə'lum olur. Lakin ən maraqlı cəhət odur ki, həmin deşik otağın tavanının öz daşından kəsilmiş, dairəvi qapaqla örtülmüşdür ki, bu da otaqdan çıxış yolunu gizlin saxlamaq üçün ən yaxşı vasitə sayılmışdır. Həmin deşikdən çıxdıqda üst otağa, daha doğrusu böyük bir zala daxil olursan. Zaldan isə artıq bayıra çıxmağa qapı vardır. 1963-cü ildə bizim arxeoloji dəstəmiz, həmin yeraltı yol ilə qalaya

qalxıb, yolun bütün sirrlərini tədqiq etmişdir. Yeraltı yolun bir çox yerlərində pilləkənlər düzəldilmişdir.

Qeyd etməliyik ki, təbii cəhətdən bu qədər əlçatmaz bir yerdə tikilmiş bu qalanın sakinləri heç də, həmin təbii sərhədlərə arxayın olmamışdılar. Onlar sıldırım qayaların başında ikiqat qala divarları da çəkmişdilər. Təxminən hər 10—12 metrlikdə yarımdairəvi bürclərlə möhkəmləndirilmiş bu qala divarları öz dövrünün me'marlıq xüsusiyyətlərini özündə əks etdirmişdir. İstər bürclərin, istərsə də ara divarlarının bayır hissəsində hərbi məqsədlərlən istifadə üçün xüsusi mazqallar düzəldilmişdir.

Qalanın içərisində tikilmiş bütün binaların əksər hallarda, həm döşəmələrinin, həm də divarlarının müəyyən qismini qayalar təşkil edir. Hətta əksər hallarda ərzaq ehtiyatı saxlamaq üçün qazılmış quyular da sal qayaları yonmaqla əmələ gətirilmişdir.

Qalada diqqəti cəlb edən ən böyük tikililərdən biri öz dövrünün ən böyük zallarından olan ictimai binadır. Yeri gəlmişkən qeyd edək ki, bu bina öz əvvəlki əzəmətini saxlamamışdır. Əsrlərlə arana-yaylağa köçən maldarlar onu uçurtmuş, divar bəzəklərini isə məhv etmişdir. Lakin indiki vəziyyətinə əsasən, aydın etmək olar ki, həmin zalın üstü tağbənd formada örtülmüş möhtəşəm sütunlar ilə möhkəmləndirilmişdir. Zalın döşəməsi sal daşdan ibarətdir. Döşəmə o qədər səliqə ilə yonulub düzəldilmişdir ki, indinin özündə belə adamı heyran edir. Zalın qərb və şərq divarları, orada bitmiş iri gövdəli ağacların tə'sirindən dağılmışdır.

Adı hələ VII əsr mənbələrində çəkilən Caraber qalası Azərbaycan tarixində baş vermiş bir sıra möhtəşəm hadisələrin şahidi olmuşdur. Biz burada yalnız bir hadisəni, bilavasitə Carabertlə əlaqədar olan bir hadisəni oxuculara xatırlatmaq istəyirik. Bu hadisə eramızın 628—629-cu illərində olmuşdur. Mə'lum olduğu kimi bu dövrdə bütün Azərbaycanla birlikdə Qarabağ da İran Sasani dövlətinin hakimiyyəti altında idi. Lakin Zaqafqaziya uğrunda uzun müddət mübarizə aparmış Bizans, bu ərazilərdə Sasani hökmranlığını görmək belə istəmirdi. Uzun illər bu yerlər üstündə Bizans ilə Sasanilərin arasında dəhşətli müharibələr olmuşdur ki, bu müharibələr içərisində əsas döyüş meydanlarından biri Qarabağ ərazisi idi. Sasanilərlə müharibədə Bizans şimal köçəri tayfalarından Xəzərlərlə müqavilə bağlayıb, Azərbaycanı ələ keçirmək üçün onların qüvvəsindən istifadə edirdilər. Belə bir müqavilə əsasında Azərbaycana ikinci dəfə ordu göndərən Xəzər xaqanı, hərbi sərkərdə tə'yin etdiyi oğlu soyuqqanlı Şada belə bir tapşırıq verdi: «Əgər o ölkənin (Azərbaycanın) hökuməti və hörmətli adamları oğlumun görüşünə gəlib, sakitcə bütün şəhər, kənd və qalaları, həmçinin ticarət məntəqələrini, bir sözlə bütün ölkəni öz varı ilə bizə versələr, onda sən də imkan ver ki, onlar yaşayıb mənə xidmət etsinlər. Əgər belə etməsələr, onda 15 yaşından yuxarı bütün kişiləri qırmalı, qadınları isə mənə və özünüzə qul və xidmətçi kimi saxlamalı».

Belə bir tapşırıq alan Xəzər qoşunlarının sərkərdəsi Şad o zaman Bərdədə oturan Sasani canişini Sema Vşnosl və ölkənin dini hakimi Vironun yanına elçi

göndərib, ölkəni ona tabe etməyi təklif etdi. Bu vaxt İran canişini sərkərdə Şadın xəbərdarlıq məktubunu kənara qoyub, bütün şəxsi əmlakını, həmçinin ölkədən əlinə keçən xeyli var-dövləti götürüb İrana qaçdı. Ölkənin yeganə səlahiyyətli şəxsi olan və həyatının böyük bir hissəsini Sasani hökmdarları tərəfindən həbsxanada keçirmiş Viro öz xalqını Xəzər qırğınından qurtarmaq haqqında dərin düşünməli oldu.

Viroya elə gəlirdi ki, bərk ayaqda qaçmış olan canişin Sema, İrandan böyük ordu götürüb onun köməyinə gələcəkdir. Lakin onun bu ümidi boşa çıxdı. Başı tac uğrunda mübarizəyə qarışmış Sasani hökmdarları Azərbaycanı tamamilə yaddan çıxarmışdılar. Ona görə də Viro ölkəni xilas etmək üçün Xəzərlərlə danışıq aparmağa başladı. Xəzərlərlə danışıqla yanaşı, Viro xüsusi qasid vasitəsilə İrana məktub göndərib, onlardan kömək istədi. Vironun bu taktikasını başa düşən Xəzərlər danışığı kəsib, Azərbaycan üzərinə tə'cili hücuma hazırlaşdılar. O zaman Xalxal şəhərində (indiki Qazax rayonudur) yerləşmiş olan Xəzərlər öz ordularını üç hissəyə bölüb püşk atmaq yolu ilə Azərbaycanı həmin hissələr arasında böldülər. Kiçik Qafqazın şimal ətəklərində dəhşətli döyüşlər başlandı. Bu vaxt Viro və ölkənin digər adlı-sanlı adamları bir sıra müdafiə tədbirləri görmək üçün öz dövrünün ən e'tibarlı sığınacaq yeri olan möhtəşəm Carabert qalasında yerləşdilər. Mənbələrin verdiyi mə'lumata görə, bu qala bütün Zaqafqaziyada özünün e'cazkar möhkəmliyi ilə fərqlənirdi.

Döyüşlərin qızğın vaxtı Şad yenidən Vironun yanına elçi göndərib, ona aşağıdakı sözlərlə müraciət etdi: «Sənə nə əmr edirəmsə onu da et. Ölkəni təhvil ver. Bununla da sən özünü, ölkənin adamlarını, evləri və xiyabanları xilas etmiş olarsan. Əgər buna e'tiraz etsən, onda əmr edəcəm səni tutub qolları sarıqlı halda mənim yanıma gətirsinlər». Şadın bu hədəsinə cavab olaraq Viro ölkəni talan və qarətlərdən qurtarmaq məqsədi ilə zadəganları, vilayət başçılarını, ordu rəhbərlərini din xadimlərini və başqalarını Carabert qalasına toplayıb, yuxarıda təsvirini verdiyimiz zalda yığıncaq çağırdı. Yığıncaqda ölkənin taleyi məsələsi həll olunurdu. Məsələ kəskin idi. Ya ölkəni tabe etmək, yaxud da ciddi müdafiə tədbirləri görmək. Hərtərəfli müzakirədən və qüvvələrin münasibətini ölçüb-biçdikdən sonra, məclis iştirakçıları Vironun təklifi ilə ölkəni, əhalini amansız qırğından xilas etmək üçün məsələnin sülh yolu ilə həllini qərara aldılar. Elə həmin gündən böyük hədiyyələr toplayan Viro, bir dəstə adlı-sanlı adamla Şadın hüzuruna getmək qərarına gəldi. Bu zaman Şad və onun qoşunları Bərdə şəhəri yaxınlığında məskən salmışdılar. Vironun gəlişini eşidən Şad ona təntənəli qəbul düzəltdi. Danışıqlar zamanı Şad Xəzərlər tərəfindən əsir alınmış çoxlu kişi və qadınları, hətta erməni və gürcü əsirlərini belə azad etdirdi. Lakin ölkə Xəzər xaqanına böyük xəraclar verməli oldu. Həmin ildə ölkədə böyük taun xəstəliyi yayıldı və Viro da bu xəstəliyə tutularaq, çox güman ki, Carabert qalasında vəfat etdi.

Uzun müddət Qarabağda yaşamış və burada özünün ən böyük əsəri olan «Məcəllələr» kitabının müəllifi Mxitar Qoş Alban (Azərbaycan) katolikosu Vironu «Müqəddəs insan, öz comərdliyi ilə parlayan bir adam» adlandırmışdır.

Qaya üstündə qala adlandırdığımız Carabertin həyatından gətirilmiş bu kiçik hekayət onun möhkəmliyi ilə Azərbaycan tarixində tutduğu mövqeyi azacıq da olsa gözümüz qarşısında canlandırır. Qeyd etməliyik ki, son zamanlara qədər məhz bu qalanın adı ilə Yuxarı Qarabağın bir hissəsi Carabert adlanırdı.

## BEŞİKLİDAĞ ƏFSANƏSİ VƏ HƏQİQƏT

Beşiklidağ Kiçik Qafqazın Cənub-Şərq qollarından biri olub, Ağdam-Ağdərə şose yolunun sağ tərəfində Xaçın çayının sağ sahilindədir. Onun cənub tərəfdən zirvəsində möhtəşəm bir divar qalığı vardır.

Xaçınçay tərəfdən isə dağın sıldırım döşündə böyük bir kaha görünür. Beşiklidağ haqqında xalq arasında əfsanənin yaranmasına da məhz bu abidələr səbəb olmuşdur. Əfsanəyə görə guya bu dağ xalq qəhrəmanı Koroğlunun Çənlibel diyarıdır. Haqqında danışdığımız bina onun evi, sıldırım qayadakı kaha isə Qıratın tövləsidir, əfsanəni həqiqətlə yoxlamaq üçün həmin dağda aparılmış elmi axtarışlar bu abidələrin əsil mahiyyətini aydınlaşdırırdı. Mə'lum oldu ki, Beşiklidağın Xaçınçay tərəfdən sıldırım hissəsindən görünən kaha təxminən 7—8 yüz il bundan əvvəl süni surətdə düzəldilmiş bir kilsədir. Çay səthindən təxminən 500 m. yüksəklikdə yerləşən bu sahədə xüsusi mehrabı olan kilsə, müqəddəslərin dəfn edilməsi üçün xüsusi qəbiristanlıq və ibadətçilərin istirahəti üçün gözəl meydança düzəldilmişdir. Kilsəyə yol qayanın üzü ilə, bir ayağı sığışa biləcəyi pilləkənlər düzəldilməklə çəkilmişdir. Yolboyu qayanın üzərində gözəl sənətkarlıqla xristianlığın dini embleması olan xaç təsvir edilmişdi. Kahaya (kilsəyə) yaxınlaşdıqda qaya üstündəki təsvirlər artır. Burada xaçlarla yanaşı at təsvirləri, stilistik insan təsvirləri və s. həkk edilmişdir. Sal qayada tunel formasında yonularaq düzəldilmiş kilsədə mehrab, adi kilsələrdə olduğu kimi baş tərəfdə deyil, yandadır. Bu isə qibləgahı çaşdırmamaq üçün qəsdən kilsənin qərb hissəsində təxminən 7x5 m ölçüdə daş yonularaq xüsusi meydança hazırlanmışdır. Meydançanın döşəməsində qurbangahlar adlanan çalalar vardır. Kəsilən heyvanın qanı axması üçün qaya üzərində arxcıqlar cızılmışdır. Bundan əlavə döşəmədə həm xaç, həm də orta əsr oyun növlərindən olan damavarı lövhələr qazılmışdır. Bu düzəngahın qərbində, sıldırım qayada dairəvi bir deşik açılmışdır, diametri 50—60 sm olan həmin deşik qərbdən olan təhlükəni izləmək üçün düzəldilmişdir. Kilsədən və düzəngahlıqdan bir qədər aşağıda qəbiristanlıq salınmışdır. Burada qaya uzununa yonulmuş, sonra isə orada sal daşın içərisində qəbir düzəldilmişdir. Qəbirlərin ağzına daşdan xüsusi qapaq qayrılmışdır.

Bəs necə olmuşdur ki, dindarlar öz ibadət evlərini belə bir sıldırım qaya üzərində inşa etmişlər? Bu suala cavab vermək üçün qısaca da olsa Azərbaycanda

xristianlığın tarixinə nəzər salaq. Mə'lum olduğu kim hələ IV əsrin 20-ci illərində çar Urnayrın hakimiyyəti dövründə Albaniyada (qədim Azərbaycan ərazisində) xristianlıq dini qəbul edilmiş və tezliklə dövlət dininə çevrilmişdi. Mənbələrin verdiyi mə'lumata görə xristianlıq Qarabağda daha müvəffəqiyyətlə yayıla bilmişdir. Xristian kahinləri ölkədə dinin ağalığını tə'min etmək üçün hər yerdə kütləvi surətdə kilsə tikintisi aparmışlar. Azərbaycanın ərəblər tərəfindən işğalına və burada islam dininin qələbəsinə qədər təxminən 400 illik bir dövrdə bütün ölkədə xristianlıq hakim din olmuşdur. Lakin islam dini də bütün Zaqafqaziyada olduğu kimi Azərbaycanda hər yerdə yayıla bilmədi. Xüsusilə dağlıq hissələrdə əhali öz köhnə xristianlıq dinini qismən də olsa saxlaya bildi. Hətta ərəb müəllifi İbn Xəldun yazırdı ki, ərəblər dağlıq yerlərə çox həvəs göstərmirdilər. Bu və digər siyasi səbəblər üzündən Qarabağın əksər düzən hissəsində islam dini IX əsrdən sonra qələbə çala bildisə, onun dağlıq hissəsində yaşayan əhali öz köhnə xristianlıq dinində qaldı. Beləliklə, IX əsrdən sonra Qarabağın düzən hissəsində yaşayan əhali ilə onun dağlıq hissəsində yaşayan əhali bir-birindən din ayrısı düşdü. Bu isə tarixən bir olan bu xalqın getdikcə biri-birindən özgələşməsi üçün şərait yaratdı. Kiçik bir ərazidə xristianlıq dinində qalmış Dağlıq Qarabağ ərazisi akademik N. Y. Marr demişkən erməni Qriqorian kilsəsinin mülkünə çevrildi. Bu məsələni daha dəqiq öyrənmiş görkəmli tarixçi İ. Petruşevski isə haqlı olaraq göstərir ki, Dağlıq Qarabağda kilsə yerli əhalinin «erməniləşməsi üçün silah rolunu oynadı». Sonralar bu hadisəyə sür'ət verən bir sıra başqa amillər də olmuşdur ki, biz onlar üzərində dayanmayacayıq. Lakin onu demək lazımdır ki, tarixən öz dini müstəqilliyini qoruyub saxlamağa çalışan Dağlıq Qarabağın din xadimləri öz ibadətgahlarını ayrı-ayrı dini təriqətlərdən və hətta yad dinlərdən qoruyub saxlamaq üçün kilsələri məhz sıldırım yerlərdə, dağ zirvələrində, çətin keçidlərdə tikirdilər ki, bunlardan biri də haqqında danışdığımız Beşiklidağ kilsəsidir. Bu növ kaha-kilsələr Qarabağın digər yerlərində də, xüsusilə Tərtərçay dərəsində də inşa edilmişdi. Beşiklidağın ikinci abidəsi, yə'ni Şahbulağı tərəfdən zirvədə görünən bina qalığı daha sonrakı dövrlərə aiddir. Onun yaranması tarixi belədir.



**Xudafərin. On beş aşırımlı körpü.**

Qarabağ xanı Pənah Əli xan özünə ilk iqamətgah olaraq məşhur Bayat qalasını tikdirmişdi. Lakin Qarabağ məliklərinin bir neçəsinin təşəbbüsü ilə Şəki xanı Hacı Çələbi xan Pənah Əli xanın artmaqda olan qüdrətinə son qoymaq üçün XVIII əsrin 40-cı illərinin sonunda Bayat qalasını mühasirəyə aldı. Əvvəlcədən

ciddi döyüş hazırlığı aparmış Pənah Əli xan bu vuruşmada möhtəşəm qələbə qazandı. Lakin o, hiss etdi ki, bir qala ilə düşmənlər qarşısında dayanmaq gələcəkdə də dəhşətli nəticələrə səbəb ola bilər. Ona görə də Pənah Əli xan gözəl təbiəti, əlverişli coğrafi mövqeyi olan Şahbulağın yaxınlığında növbəti bir qala tikdirməyi qərara aldı. Az bir vaxt içərisində Pənah Əli xan Şahbulağında möhtəşəm bir qala, məscid, hamam və s. tikdirdi. Bayat qalasında olduğu kimi burada da xüsusi bazar məhəlləsi saldırdı. Hazırda xarabalığından göründüyü kimi bu qala düzən bir yerdə bina edilmişdir. Ona görə də uzaqlardan gələcək düşmən qoşunlarını görmək və bu barədə qalaya xəbər vermək üçün xüsusi gözətçi məntəqələri olmalı idi. Ətrafı görmək üçün nisbətən yüksək bir yer olan Beşiklidağın zirvəsi belə bir qaraulxana üçün əlverişli idi. Odur ki, Pənah Əli xan burada xüsusi qaraulxana binası tikdirdi. Əgər qaraulxanada dayanmış gözətçi düşmən təhlükəsi hiss etsə idi, onda xüsusi məş'əl yandırmaqla qalaya xəbər verirdi. Hazırda yalnız iki divarı salamat qalmış bu bina çox güman ki, Şahbulaq qalasının gözətçi məntəqəsi olmuşdur. Bu növ gözətçi məntəqələri cənubdan gələn yol üstündə, Ağdam rayonunun Gülablı kəndi ərazisindəki Çıraqlıtəpə və Füzuli şəhəri yaxınlığındakı Qaraköpəktəpə üzərində inşa edilmişdir. Bu məntəqələrdən gözətçilər bir-birini asanlıqla müşayiət etmişlər.

Bütün deyilənlərdən aydın olur ki, Beşiklidağ haqqında Koroğlu ilə əlaqədar xalq arasında yayılmış əfsanənin həqiqətlə heç bir əlaqəsi yoxdur. Lakin dağdakı abidələrin möhtəşəmliyi və dağın öz əzəməti belə bir əfsanənin yaranmasına səbəb olmuşdur.

## QANLIQALA

Orta əsr səyyahlarından biri haqlı olaraq ibarə ilə demişdir: «Əgər Qarabağı görmək istəyirsənsə Tərtərçay vadisinə baş çək».

Doğrudan da, təbii-coğrafi cəhətdən son dərəcə füsunkar bir guşə olan Tərtərçay vadisinin Kiçik Qafqazda özünə məxsus yeri var. Vaxtilə Qarabağın yaylaq hissəsi ilə düzənini birləşdirən köç-karvan yolunun keçdiyi bu dərə xalqımızın çoxəsrlik tarixini özündə əks etdirən müxtəlif növlü abidələrlə zəngindir. Onların əksəriyyəti əlçatmaz qayaların zirvəsində salınmış mürəkkəb me'marlıq elementlərinə malik olan qalalardan, dini ibadət komplekslərindən, qaraulxanalardan və müvəqqəti yurd yerlərindən ibarətdir. Vadi, həmçinin, Azərbaycan tarixi ilə bağlı bir çox hadisələrin baş verdiyi ərazilərdən biridir. Tərtərçay vadisinin ən mühüm abidələrindən biri Xotavəng mə'bədi kompleksidir. Tərtər çayının sol sahilində inşa edilmiş bu abidə əfsanəyə görə İsanın 12 şagirdindən biri olan apostol Faddeyin qəbri üzərində, I əsrdə tikilmişdir. Hal-hazırda mövcud olan mə'bəd kompleksi, əsasən, XIII əsrdə inşa edilmiş baş kilsədən, yardımçı binalardan, bir neçə sövmədən, şərab istehsalı

e'malatxanasından, mehmanxana binasından, qurbangahdan və bütün bunları əhatə edən qala divarlarından ibarətdir.

Mə'bədin yazılarından birində burada Qarabağın Xaçın hökmdarlarından bir çoxunun və hətta XIII əsrin görkəmli Alban hökmdarı Həsən Calalın arvadı Mina xatunun dəfn olunduğu göstərilir.

Burada həmçinin, öz dövrünün nüfuzlu nəslə malik Arzu xatunun adına da xeyli xatirə yazıları vardır.

Xotavəng mə'bədi kompleksi sahibləri öz dövrünün iri feodallarından olmuş və ölkənin istər siyasi, istərsə də iqtisadi həyatında hərtərəfli rol oynamışlar. Xotavəngdə XIII əsrin görkəmli Alban ziyalısı Mxitar Qoş da olmuş və orada xatirə üçün nişandaş da qoymuşdur.



**Müqəddəs Yelisey mə'bədində daşda atlı təsviri.**

Tərtər dərəsinin ən mühüm abidələrindən biri də məşhur alban tarixçisi Moiseyin doğulduğu Kalankat yaşayış yeridir. Murov dağının cənub ətəklərində, Tərtərçayın sağ sahilində, hər tərəfi meşə ilə əhatə olunmuş bu şəhər təbii-coğrafi cəhətdən gözəl bir guşədə salınmış və kiçik dağ çayı ilə iki hissəyə bölünmüşdür. Əvvəlcədən qeyd edək ki, şəhər hərbi strateji baxımdan son dərəcə əlverişli bir yerdə olub, bütün keçidlərdə dairəvi bürclərdən ibarət xüsusi qaraulxanalarla əhatə olunmuşdur. Bürclərin içərisi, daha doğrusu birinci mərtəbəsi, silah saxlamaq üçün istifadə olunmuşsa, II mərtəbə ancaq əsgərlərin dayanması üçün nəzərdə tutulmuşdur. Bürclərin demək olar ki, hamısı mazqallı idi.

Kalankat şəhərində kəşfiyyat işləri zamanı, buranın ictimai və yaşayış binalarının qalıqları, mə'bəd kompleksləri və istehsalat ocaqları aşkar edilmişdir. Şəhərin ərazisində müxtəlif məzmunlu çoxlu epiqrafik abidələr (daş kitabələr) mövcuddur.

Arxeoloji axtarışlar zamanı şəhərin ərazisində XII əsrə aid bitki yağı istehsal edən e'malatxana aşkar edilmişdir. Bundan əlavə şəhərdə daşişləmə, dulusçuluq və dəri e'malı kimi sahələr də geniş inkişaf etmişdir.

Tərtər dərəsində diqqəti cəlb edən abidələrdən biri də yerli əhali arasında Qanlıqala adı ilə məşhur olan Laçınqala abidəsidir. Tərtərçayın sol sahilində, indiki Ağdərə—Kəlbəcər yolunun sağında, sıldırım bir qayalıqda salınmış bu qalaya yerli camaat «quşqonmaz» da deyir. Laçınqala haqqında ilk mə'lumata XIII əsr gəncəli tarixçi Kirakosun əsərində təsadüf olunur. Onun fikrincə, Laçın qayasındakı Qanlıqala XII əsrdə Xaçın hökmdarlığının gücləndiyi bir vaxta, təkcə qonşu feodallardan deyil, həm də yadelli işğalçılardan mühafiə olunmaq üçün tikilmişdir.

Bura Qanlıqala deyilməsinin səbəbi isə o idi ki, XIII əsrin əvvəllərində monqol-tatarlar Tərtər dərəsinə hücum edərkən, əhalinin böyük bir qismi özünün qırğından xilas etmək üçün məhz Laçınqaya qalasına pənah gətirmişdir. Qalanın müdafiəsi işini Xaçın hökmdarı Həsən Calalın anası, gürcü çarı Tamaranın yanında yüksək dövlət vəzifələrinə sahib olmuş Zəkəriyyə və İvanənin bacısı Arzu xatun öz öhdəsinə götürmüşdü. İlk vaxtlar doğrudan da qalada yerləşən əhalinin təhlükəsizliyi tə'min olundu. Lakin bu uzun çəkmədi. Təxminən 1240-cı ilin sonunda monqol tatarlar qalanı mühasirəyə alıb əhalini elə vəziyyətə saldılar ki, onların bir çoxu özünü qayadan atdı, digərləri isə qılıncdan keçirildi. Tarixçinin yazdığına görə qırğın nəticəsində çay qan ilə dolmuşdu. Qayanın döşündən qan sel kimi axırdı. Yəqin ki, məhz buna görə də əhali bu qayanı Qanlıqala adlandırır. Hal-hazırda Laçınqaya qalasının xeyli yerüstü abidələri mövcuddur. Bunların içərisində qala bürcləri, yeraltı yolun qalıqları, su təchizatı sistemi, ictimai və yaşayış binalarının qalıqları xüsusi yer tutur.

Hal-hazırda Qanlıqala yerli əhalinin ziyarətgahına çevrilmişdir. Sanki bu qala yadelli işğalçılara qarşı mübarizə rəmzi kimi əsrlərlə xalqımızın yaddaşında müqəddəsləşmişdir.

## NİCAT KÖRPÜLƏRİ

Araz çayı xalqımızın tarixində ikimə'nalı mövqe tutur. Bir tərəfdən o qədim yazılı mənbələrdə qızıl vadisi olan və ya cənnətdən axan çay adlanıb, həyat çayı, dirilik suyu hesab edilirsə, digər tərəfdən bu çay təsəvvürlərimizdə xalqımızı bir-birindən ayıran, onları həsrətdə qoyan bir sədd kimi canlanır. Hər iki təsəvvürün əsası vardır. Uzun əsrlər cənnətdən axan çay kimi təsəvvür edilib, ziyarətgaha çevrilən bu çay, 1813—1828-ci illərdə Rusiya ilə İran arasında bölüşdürülmüş Azərbaycanı bir-birindən ayıran qalaya çevrildi. Lakin bütün bunlara baxmayaraq hər halda Araz çayı Azərbaycanın qan damarlarından biridir. Lakin biz burada heç də Araz çayını tədqiq etmək fikrində deyilik. Söhbət bu çayın üzərində zəmanəmizə qədər gəlib çatmış və Cənubla Şimali Azərbaycanı birləşdirən yeganə yol olan Xudafərin körpüləri haqqında gedəcəkdir.

Bir-birindən 800 m aralı, Araz çayının ən dar yerində tikilmiş olan bu körpülər öz dövrünün son dərəcə mürəkkəb mühəndis qurğularıdır.

Hər iki körpü bir-birindən istər tikinti materialı, istər inşaat texnikası, istərsə də aşırımlarının sayı e'tibarilə ciddi surətdə fərqlənirlər.

Körpülərdən biri ağ daşdan inşa edilmiş, on bir aşırımlıdır. Hündürlüyü 12 m, uzunluğu isə 130 m olan bu körpünün aşırımları suyun tə'sir gücünə uyğunlaşdırılaraq müxtəlif ölçülərdə tikilmiş və xüsusi dalğayaran qurğularla əhatələnmişlər. Dalğa yaranlar çay daşından tikilmişdir. 1828-ci ildə Rusiya ilə İran arasında bağlanmış müqavilədən sonra körpünün hər iki sahilə çıxan hissəsi partladılmış və yararsız hala salınmışdır.

Körpü haqqında mənbə mə'lumatları olduqca azdır və yalnız XIII əsr müəlliflərindən biri onun VIII əsrdə inşa edildiyini qeyd edir.

Daş körpüdən cənubda, yə'ni çayın aşağı axarında bişmiş kərpicdən daha bir körpü inşa edilmişdir. Çay bu hissədə bir qədər enli olduğundan, kərpic körpünün uzunluğu və buna müvafiq olaraq aşırımların sayı da daş körpüyə nisbətən çoxdur.

Belə ki, bu körpünün uzunluğu 200 m, eni 4,5., aşırımların sayı isə 15-dir. Bu körpü üçün də xüsusi dalğayaranlar inşa edilmişdir. Körpünün tikinti texnikası, kərpiclərin ölçüsü və bünövrə materialları onun XIII əsrdə inşa edildiyini söyləməyə imkan verir. Xudafərin körpülərinin tikilməsi ilə bağlı iki əsas qaranlıq məsələ vardır. Bunlardan biri bu körpülərin nə üçün qoşa olmasıdır. Yə'ni biri dağılmamış, nə üçün ikincisi tikilib? İkinci qaranlıq məsələ isə ondan ibarətdir ki, nə üçün bu körpülər məhz burada tikilmişdir. Çünki Xudafərinin tikildiyi ərazi karvan yolu üçün coğrafi cəhətdən o qədər də əlverişli deyildir.

Bu məsələlərlə əlaqədar olaraq tədqiqatçılar arasında olduqca müxtəlif fikirlər mövcuddur. Hər şeydən əvvəl nə üçün bu körpülər qoşa tikilmişdir sualına cavab verməyə çalışacağam. Qeyd etmək istəyirəm ki, bu məsələni tədqiqatçılar bir neçə amil ilə bağlayırlar. Birinci fikrin tərəfdarları belə iddia edirlər ki, guya daş körpü yararsız hala düşdüyündən ikinci körpü tikilmişdir. Bu fikir düz deyil, çünki ən qədim körpü XIX əsrdə zorla uçurdulmuşdur. Özü də tam uçurda bilməmişlər.

İkinci körpü isə indinin özündə də yararlıdır. Ona görə də «bir körpü yararsız olduğu üçün o birisi tikilmişdir» ideyası ilə razılaşmaq qeyri-mümkündür. İkinci güman ondan ibarətdir ki, (bizim fikrimizcə) körpüləri ayrı-ayrı feodallar tikdirmiş və ancaq gömrük haqqı almaq və beləliklə də varlanmaq məqsədi güdmüşlər. Şərqdə və qərbdə belə hallar olmuşdur.

Nəhayət, üçüncü güman ondan ibarət olmuşdur ki, birinci körpü ikincisi üçün xilasedici rolunu oynamışdır. Yə'ni birinci körpü və onun dalğa yaranları sel vaxtlarında suyun gücünü qismən azaltmış və ikinci körpüdən sərbəst və təhlükəsiz gediş-gəlişi tə'min etmişdir.

Nəhayət, daha bir güman da ondan ibarətdir ki, guya körpülərdən biri nəqliyyat üçün, digəri isə mal-qara üçün nəzərdə tutulmuşdur. Hər halda bəhs etdiyimiz məsələ əlavə tədqiqatlar tələb edir. Xudafərin körpüləri ilə əlaqədar qaranlıq məsələlərdən biri də bu körpülərin nə üçün məhz burada, karvan yolu baxımından coğrafi cəhətdən qeyri əlverişli bir yerdə tikilməsidir. Bu körpülər nə Ərdəbil—Beyləqan və nə də Təbriz—Culfa yolu üzərində deyil, yol üçün əlverişsiz olan cənubdan Qaradağ, şimaldan isə boş səhralıqla qarşılaşan bir keçiddə inşa edilmişdir. Bu məsələ ilə əlaqədar iki ehtimal söyləmək olar: birinci ehtimala görə, Xudafərin körpüləri heç də karvan-ticarət yolu üzərində deyil, məhz hərbi-strateji cəhətdən əlverişli yerdə tikilmişdir. İkinci ehtimala görə, ərəblərin Azərbaycanı işğalından sonra cənubdan Qaraçay vadisi ilə Təbriz—Beyləqan, Bərdə—Tiflis istiqamətində yeni ticarət yolu mövcud olmuş və bu yol üzərində də körpülər inşa edilmişdir. Lakin çox da böyük əhəmiyyyətli olmayan, çətin dağ

keçidləri ilə qarşılaşan yol üzərində belə möhtəşəm, həm də qoşa körpülərin inşası ağlabatan deyildir. Tədqiqatlar göstərir ki, birinci fikir, yə'ni körpülərin hərbi-strateji məqsədlə inşa edilməsi ehtimalı həqiqətə daha uyğundur. Bu fikri təsdiqləyən iki əsas fakt mövcuddur. Əvvəla bu ərazidə qədim və orta əsrlərdə karvan ticarət yolunun keçməsi barədə heç bir mə'lumatın mövcud olmaması və bunun üçün də təbii-coğrafi şəraitin əlverişsiz olması.

Digər fakt ondan ibarətdir ki, Xudafərin körpülərinin hər iki tərəfində, hərbi-strateji baxımdan əlverişli bir yerdə qaraulxanalar tikilmişdir. Şimal tərəfdəki qaraulxana çay səviyyəsindən xeyli yüksəklikdə tikilib, hal-hazırda yerli əhali arasında Qız qalası adlanır, cənubdakı qaraulxana isə daş körpünün qənşərində olub, son dərəcə mürəkkəb quruluşa malikdir. Təcrübə göstərir ki, belə qaraulxanalar ancaq hərbi baxımdan vacib obyektlərin müdafiəsi naminə inşa edilmişdir.

Hal-hazırda Xudafərin körpüləri ərazisində tədqiqat işləri aparılır. Yəqin ki, yaxın gələcəkdə bu köpülərin daha yeni-yeni sirləri açıqlanacaqdır.

## AYRICA DÖVLƏT

Mə'lum olduğu kimi Azərbaycan V—VI əsrlərdə Sasani canişinləri tərəfindən idarə olunurdu. Onların mərkəzi əvvəlcə Qəbələ, sonra isə Bərdə şəhəri idi. Canişinlər ölkədə bütün hüquqları öz əllərinə almışdılar. Onların qoyduğu həddindən artıq vergi sistemi xalqı zara gətirmişdi. Odur ki, yerli feodallar dəfələrlə Sasanilər əleyhinə üsyan qaldırmışdılar. Digər tərəfdən də Sasani imperiyası ilə Bizans arasındakı uzun-uzadı müharibələrdən zara gəlmiş Azərbaycan feodalları zülmdən xilas olmaq üçün müxtəlif yollar axtarırdılar. Belə bir şəraitdə Sasani hökmdarları Azərbaycan kimi iqtisadi cəhətdən əhəmiyyətli, hərbi strateji cəhətdən isə son dərəcə əlverişli bir ölkəni əldən buraxmamaq üçün 551-ci ildə buradakı Sasani canişinlərinin bir sıra hüquqlarını ləğv edib, həmin hüquqları yerli feodallara verdi.

Belə hüquqlardan ikisi daha böyük əhəmiyyət kəsb edirdi. Birincisi vergi yığmaq hüququ, ikincisi isə qoşuna rəhbərlik etmək hüququ idi. Yuxarıda göstərilən qərara əsasən hər iki hüquq canişinlərdən alınıb, yerli feodallara verildi. Bu isə yerli feodalların müstəqillik meyllərinin güclənməsinə səbəb olur. Odur ki, VI əsrin sonu, VII əsrdən başlayaraq Azərbaycanda bir sıra feodal hökmranlığı yarandı. Onlardan ən böyüyü Aranşahlar adlanan Girdiman dövləti və Şirvanşahlar adlanan Şirvan dövləti idi.

Azərbaycanın cənub-qərbində isə Sünik dövləti yaranmışdı. Həmin dövrdən Qarabağın böyük bir hissəsi (əslində əksər hissəsi) Sünik dövlətinin daxilində idi. Hətta bu zaman dövlətin (hökmdarlığın) mərkəzi indiki Xocavənd rayonuna köçürülmüşdü.

Erməni tarixçisi Sebosun verdiyi mə'lumata görə 571-ci ildə Sünik hökmdarı Vahan Sasani hökmdarı Xosrova məktub yazıb bildirir ki, «onun mərkəzini Atropaten sərhəddinə gətirsin, ölkənin arxivini Dəbil şəhərindən Beyləqan şəhərinə köçürsün və erməni sözünü Sünik hökmdarlığının üzərindən götürsün». Sasanilər bu məktubda yazılanlara əməl edir, Süniyi Ermənistanın inzibati bölgüsündən çıxararaq, Atropatenə daxil edir. Bu dövrdən ayrıca hökmdarlıq olan Sünik (ərazisi əsasən Zəngəzur dağlarından Şərqə və bütün Dağlıq, qismən də düzənlik Qarabağı əhatə edirdi) dövlətinin öz qoşunu, gerbi və bayrağı vardı. IX əsrə kimi bütün Zaqafqaziyanın həyatında görkəmli rol oynayan Sünik dövləti IX əsrdə qismən parçalandı. Elə bu vaxtdan da ayrıca Xaçın knyazlığı adlı Qarabağ dövləti yarandı. Bu knyazlığın başında Sasani şahlarının qohumu olan Mehranilər sülaləsinin ayrı-ayrı nümayəndələri dururdu.

XIII əsr bu knyazlığın həyatında ən parlaq dövrdür. Bu dövrdə knyazlığın başında, tarixdə məşhur olan Həsən Calal dururdu. Həsən Calalın dövründə Xaçın hökmdarlığının (Qarabağ hökmdarlığının) sərhədləri o qədər genişlənmişdi ki hətta onun hökmdarı bir çox yazılı mənbələrdə özünü bütün Albaniyanın hökmdarı adlandırırdı. Tarixi mənbələrdə Xaçını, yə'ni Qarabağı ayrıca ölkə adlandırırdılar.

Qeyd etməliyik ki, Xaçın knyazlığı asılı dövlət idi. Lakin onun bütün fəaliyyətində müstəqillik həmişə hiss olunurdu. Bu müstəqillik yuxarıda göstərdiyimiz kimi XIII əsrdə Həsən Calalın dövründə daha çox müşahidə edilir.

Həsən Calal öz dövrünün ən görkəmli şəxsiyyətlərindən biri idi. Onun müasiri tarixçi Gəncəli Kirakos Həsən Calal haqqında yazmışdır:

«Həsən Calal mülayim, təvazökar, sakit və mehriban təbiətli, yoxsulları sevən bir adam idi. O, müqəddəslərə hörmət edir, elmi isə sevirdi».

Həsən Calalın hakimiyyəti dövründə bütün Zaqafqaziya monqol hücumlarına mə'ruz qalmışdı.

Bu vaxt Həsən Calalın bir neçə möhtəşəm, alınmaz qalası vardı. Bunlar Haterk qalası (Ağdərə rayonunun Həsənriz kəndində), Xaçın qalası (Ağdərə rayonunun Dovşanlı kəndi ərazisində), Laçınqaya (indiki Bərdə—İstisu yolunun kənarında, Kəlbəcər rayonu ərazisində) və Xoxanabert (Oğlanqala və ya farsca «Şah yaşayan qala» deməkdir; Ağdərə rayonu ərazisində) və s. idi.

Monqolların Xaçın dövlətində ilk hücum etdikləri qalalardan biri Xoxanabertdir. Mənbələrin verdiyi məlumata görə Həsən Calal ölkənin görkəmli şəxsiyyətlərini bu qalaya yığaraq, monqol hücumlarına qarşı tədbirlər hazırladığı bir zamanda, monqollar qalanı mühasirəyə aldılar. Lakin onun alınmazlığını görüb Həsənin yanına qasid göndərərək sülh tələb etdilər. Həsən Calal isə monqolların güclü hücumundan xilas olmaq üçün ağıllı hərəkət edərək, sülh təklifinə razılıq verdi və böyük hədiyyələrlə monqol xaqanının hüzuruna getdi.. Xaqan isə onu böyük hörmətlə qəbul edib, hərbi köməklik göstərmək şərti ilə Həsən Calalın ölkəsinə dəyməyəcəyinə söz verdi.

Lakin mənbələrin verdiyi mə'lumata görə bu «dostluq» uzun sürmədi. Monqolların böyük bir dəstəsi Qarabağın dağlıq hissəsinə hücuma keçərək, ən möhtəşəm qala olan Laçınqayanı mühasirə etdilər. Gəncəli Kirakosun məlumatına görə bu vaxt Qarabağın həyatında ən dəhşətli döyüş oldu. «Qala ətrafında yer öldürülənlərin meyidi ilə dolu idi. Qan çay kimi axırdı. Sonralar burada insan sümüyündən elə bil ki, daşlı dağ əmələ gəlmişdi».

Belə ağır bir vəziyyətdə Həsən Calal özünü itirmədi. O, hansı yolla olur-olsun monqollarla dil tapmağa çalışdı. Daş üzərindəki yazılardan aydın olur ki, 1238—40-cı illərdə Həsən Calal monqol sərkərdəsi Carmağan ilə dostlaşa bildi. Hətta öz qızı Rzukanı Carmaqanın oğlu Boranuinə ərə verdi.

1243-cü ildə artıq Həsən Calal öz qoşunu ilə monqol sərkərdəsi Baçuya kömək edərək, onunla Sultan Qiyasəddin Key Xosrov əleyhinə döyüşdə iştirak etdi. Bu zaman o, monqol sərkərdəsinin daha böyük inamını qazandı.

1251-ci ildə Həsən Calal Qızıl Orda xanının oğlu Batı Sartakın yanına gəlir. Böyük hörmətlə qarşılanan Həsən Calal bu görüşdə vaxtilə əlindən çıxmış bir sıra qalalarını, o cümlədən Caraberti, Qarqar və Akana qalalarını geri qaytarır. Həm də Həsən Calal Sartak ilə birlikdə Monqolustana gedir. Bu barədə Həsən Calalın özü tərəfindən yazılmış bir məktubda deyilir:

«Mən Həsən Calal Dövlə öz ailəmlə birlikdə vətənin naminə Şərqdə atıcılar ölkəsinin padşahının yanına getdim. Mən və mənim arvadım Mina xatun, həmçinin allah tərəfindən verilmiş oğlum Atabəy dünyanın axırına, şimal-şərqə doğru gedərək, Manqu xanın yanına çatdıq. Beş il orada qaldıqdan sonra vətənə qayıtdıq. Mənim oğlum və arvadım öz evlərinə getdi. Mən isə Təbrizdə qaldım».

Orta əsr tarixçilərinin verdiyi mə'lumata görə Həsən Calal Sartak ilə birlikdə Manqu xanın yanında olarkən monqol sərkərdəsi Arqundan ona şikayət etmişdi. Manqu xan isə onun təhlükəsizliyini tə'min etmək üçün Həsənə xüsusi vəkalətnamə vermişdi.

Bunu eşidən Arqun, Həsən Calal vətənə qayıdan kimi, bəhanə ilə onun bir neçə qohumunu əsir tutdu. Bu zaman Həsənin qızı Rzukan atasını azad etmək üçün bir dəstə atlı ilə gecə ikən Monqolustana Manqu xanın yanına yola düşür. Bundan xəbər tutan Arqun, Həsənin qızı Manqu xanın yanına çatmamış, Həsənin haqqında ölüm hökmü çıxarır. Salnaməçilərin yazdığına görə Arqun Həsənin boynuna qəlib, ayağına isə dəmir qandal vuraraq Qəzvinə aparır və orada onu gecə ikən bütün oynacaqlarından doğratdıraraq böyük əzabla öldürdür. Bu hadisə 1261-ci ildə olmuşdur. Mənbə mə'lumatlarına görə bir müsəlman Həsənin meyidini quyuda saxlayır, sonra isə onu Həsənin oğlu Atabəyə verir. Atabəy isə atasının sümüklərini gətirib, indiki Ağdərə rayonunun Vənk kəndi ərazisindəki, Həsənin özü tərəfindən tikilmiş məşhur Xəznədağ mə'bədində dəfn etdirir. Tarixi yazılarda «Alban hökmdarı», «Arran çarı», «Xaçın knyazı» və s. kimi adlanan Həsən Calalın ölümündən sonra Xaçın knyazlığı onun övladları arasında bölüşdürülür və beləliklə də vahid Qarabağ (Xaçın) knyazlığı parçalanır.

Həsənin dövründə Qarabağda çox böyük tikinti işləri aparılmış, dini məktəblər açılmışdır.

Orta əsrlərin ən görkəmli alimlərindən biri Mxitar Qoş da Həsən Calalın yanında yaşamış və burada özünün «Məcəllə» kitabını yazmışdır. Bu kitab hazırda tarixi mənbə kimi dünyanın bir çox dillərinə tərcümə edilmişdir.

## ERMƏNİLƏR QARABAĞA NƏ VAXT KÖÇÜRÜLMÜŞLƏR

XIX əsrdən başlayaraq Qarabağın dağlıq hissəsində aparılmış tarixi, arxeoloji, etnoqrafik və toponimik tədqiqatlar sübut etmişdir ki, hal-hazırda burada yaşayan ermənilər mənşə e'tibarilə üç qola ayrılır. Onlardan birincisi fars dilli ermənilərdir. Tərtərçay vadisindəki Marağa, Mərgüşəvan, Aşağı və Yuxarı Çaylı kəndləri, İsfahancıq, Talış və bir sıra kəndlər fars dillidirlər. Onları mənşə e'tibarı ilə tatlaşdıran tədqiqatçılar da vardır, həm də farsdilli ermənilər təkcə Qarabağa deyil, eləcə də Qərbi Azərbaycana və Şirvana da köçürülmüşlər.

Nəzərə almaq lazımdır ki, XIX əsrin əvvəllərində Qarabağın dağlıq hissəsində cəmi 2 farsdilli erməni kəndi qeydə alınmışdırsa XIX əsrin 30-cu illərində bu qəbildən olan kəndlərin sayı 20-yə çatır. Farsdilli ermənilərin Qarabağa koçürülməsi prosesi əsasən, 1828-ci ildən sonra başlanır. Rusiya—İran müharibəsinin qurtarması ilə əlaqədar Türkmənçay kəndində bağlanmış müqavilənin 25-ci maddəsində belə bir qeyd vardır ki, İranda yaşayan ermənilər bu müqavilədən keçən bir il ərzində Arazdan şimala köçərək istədikləri yerdə məskunlaşa bilərlər. Maraqlıdır ki, İran erməniləri bu bir ili gözləmədən, rus ordusu ilə şimala keçir və Qarabağın müxtəlif guşələrində məskunlaşırdılar.

Lakin İran ermənilərinin Qarabağa kütləvi köçməsi 1828-ci ildən sonra başlanmışdır. Mənbələrin verdiyi mə'lumata görə 1828—1830-cu illərdə ruslar Zaqafqaziyaya 40 min nəfər İran ermənisi köçürmüşdülər. Bu ermənilər, əsasən, Qarabağın dağlıq hissəsində və Göycə gölü ətrafında, həmçinin Şirvanda yerləşdirilmişdir. N. N. Şavrov qeyd edir ki, 1828-ci ilin təkcə üç ayı ərzində Arazdan 8249 erməni ailəsi keçirilərək Qarabağda və Şirvanda yerləşdirilmişdir.

Qarabağda yerləşdirilmiş ermənilərin yerli əhaliyə qarşı hansı alçaqlıqlar etməsi barədə burada geniş söhbət açmaq istəmirəm, təkcə onu göstərmək istəyirəm ki, onlar yerli əhalinin əlindən 200 min desyatin, yə'ni 2 milyon manatlıq torpaq sahəsini alaraq, V. L. Veliçko demişkən «yerli əhalinin şirəsini sormağa başladılar». Eyni zamanda V. L. Veliçko yazır ki, «Gəlmə ermənilər yerli müsəlman əhalisinin şan-şöhrətini korlamaq siyasəti yeridirdilər ki, gələcəkdə onları qovub, torpaqlarına sahib ola bilsinlər».

Qarabağın yuxarı hissəsində yaşayan ermənilərin bir qismini də, daha doğrusu onların ikinci qolunu Türkiyədən köçürülən ermənilər təşkil edir. Bu ermənilərin bir qismini, təxminən 10 minə yaxın ailə, rus-türk müharibəsi qurtardıqdan sonra Ədirnə sülh müqaviləsinə, əsasən, Zaqafqaziyaya köçürülənlər

təşkil edir. Onların əksəriyyəti Gürcüstana, bir qismi isə Qarabağa köçürüldü. Qarabağa köçürülən ermənilər özlərini daha pis aparır, nəinki yerli müsəlman əhaliyə, eləcə də yerli alban əhalisinə və İran ermənilərinə qarşı da «sıxışdırma» siyasəti yürüdürdülər.

Türkiyədən Qarabağa köçürülən ermənilər çalışırdılar ki, sıx məskənlər salıb bir yerdə yaşasınlar. Qarabağın bir çox yerlərində Bizans tipli kilsələrin inşa edilməsi də məhz türk ermənilərinin burada məskunlaşması ilə əlaqədardır. Qarabağın yuxarı hissəsində yaşayan ermənilərin üçüncü qolunu əsrlərlə erməniləşmə prosesinə mə'ruz qalmış yerli alban əhalisi təşkil edir.

Mə'lumdur ki, hələ IV əsrdən bütün Albaniyada olduğu kimi Qarabağda da xristianlıq geniş yayılmış və dövlət dini səviyyəsinə yüksəlmişdir. Xristianlığın ən geniş vüs'ət aldığı ərazi Qarabağın dağlıq hissəsi olmuşdur. Lakin xristianlıq, ümumiyyətlə, Azərbaycanda, o cümlədən də Qarabağda heç də hamar yolla yayılmamışdır. Hər şeydən əvvəl xristianların öz daxilində üç cərəyan, o cümlədən monofizitlər (İsanın vahid təbiətini qəbul edənlər), diofizitlər (İsanın şəxsiyyətində üç əlamətin—allah ata, allah oğul və müqəddəs ruhu birləşdiyini iddia edənlər) və nestorianlar (İsanın şəxsində iki təbiəti qəbul edənlər) arasında kəskin ideoloji mübarizə gedirdi. Ölkədə ümumi dini pərakəndəliyi yaradan amillərdən biri də onun düzən hissəsində islamın tədricən yayılması idi. Nəhayət, Qarabağın şimal qərbində yerli əhalinin qədim dini olan bütpərəstlik də qalmaqda idi. Belə bir dini hərc-mərclik dövründə Bərdə şəhərində 701 və 704-cü illərdə iki ümumölkə məclisi toplandı.

Maraqlı cəhət onda idi ki, Bərdə məclisləri ərəfəsində ermənilər ərəblərin Zaqafqaziyanı işğalından sonra yaranmış siyasi vəziyyətdən öz məqsədləri, yəni heç olmazsa dini cəhətdən Qarabağı özlərinə tabe etmək üçün istifadə etməyə çalışırdılar. Bu dövrdə iki böyük dövlət Ərəb xilafəti ilə Bizans imperiyası Zafqaziya uğrunda gərgin mübarizə aparırdılar. Erməni diplomatiyası ərəb xilafəti ilə Bizans arasındakı ziddiyyətində xilafət tərəfində dayanır və albanları bizanspərəstlikdə ittiham edərək, xilafətin köməkliyi ilə bu ölkəni öz dini himayəsinə keçirməyə çalışırdı. Bu baxımdan 699-cu ildə erməni katalikosu İlyanın xəlifə Əbdülməlikə yazdığı bir məktubda deyilir. «Alahın dərgahı ilə bizim ölkə acizcəsinə Sizin tabeliyinizdədir. Biz də, albanlar da vahid allaha, İsaya inanırıq. Lakin albanların Bərdədəki katalikosu Roma imperatoru ilə danışığa girərək ona xeyir-dua verir və bütün əhalini də məcbur edir ki, onunla bir dində olsunlar. Siz bunu bilin və diqqətinizdən kənarda qoymayın, hətta çox hörmətli bir qadın da ona qoşulmuşdur. Allaha qarşı çıxmaq iddiasında olan bu adamları öz yüksək hökmdarlığınızdan istifadə edərək layiqincə cəzalandırmağa hökm verin». Erməni katalikosunun bu demaqoq məktubuna, yə'ni albanlarla bizanslıların birləşəcəyi təhlükəsindən qorxaraq Xəlifə Erməni katalikosuna belə bir cavab yazır: «Allah adamı, erməni xalqının katalikosu İlya! Sənin məktubun səmimidir, mən onu oxudum və həvəslə mənə sadiq xidmətçimi, çoxsaylı ordu ilə birlikdə

sənin sərəncamına göndərirəm. Onlar bizim əleyhimizə qiyam qaldırmış albanları Sizin dininizə qaytaracaqlar. Mənim xidmətçim onları Sizin gözünüz qarşısında Bərdədə cəzalandıracaq. Nersesi və onun həmfikri olan o qadını isə zəncirlə qandallayıb mənim sarayıma gətirəcəklər ki, mən onları digər qiyamçılara görk edəm».[1]

Xəlifə Əbdülməlikin göndərdiyi qoşunun müşayiəti ilə erməni katalikosu Bərdəyə gəlir, Alban katalikosunu və onun həmfikirlərini e'dam etdirir və həmin ildə də yə'ni 701-ci ildə Bərdədə böyük məclis çağırıb, Alban dindarlarını, xüsusilə Qarabağlı rahiblərin hamısını bu məclisə toplayır. Məclisin gündəliyində əsas məsələlər aşağıdakılardan ibarət idi:

1. Albaniyanın yeni katalikosunun seçilməsi.
2. Alban kilsəsinin erməni Qriqorian kilsəsinə tabe edilməsi.
3. Katalikosluğun yeni mərkəzinin müəyyənləşdirilməsi.

Hər üç məsələ müvəffəqiyyətlə ermənilərin xeyrinə həll olundu, çünki məclis gedən Bərdə şəhəri Əbdülməlikin qoşunları ilə mühasirə olunmuşdu. Bundan qorxan Albaniyanın qarabağlı yepiskopları erməni qriqorian kilsəsinə tabe edildi. Yeni seçilən katalikos Simion ermənilərə sadiq olacağına and içdi. Katalikosluğun yeni mərkəzi isə Murovdağ ətəyində, indiki Ağdərə rayonu ərazisində inşa edilmiş Müqəddəs Yelisey mə'bədi e'lan olundu. Aradan üç il keçdikdən sonra (704-cü il) yenidən Bərdədə məclis çağrıldı və bütün qarabağlı yepiskopların dilindən iltizam alındı ki, əgər onlar Qriqorian məzhəbinə sadiq olmasalar kafir e'lan olunacaqlar. Elə bu vaxtdan başlayaraq Qarabağın dağlıq hissəsində yaşayan xristian əhali arasında əvvəlcə qriqorianlaşma, sonralar isə (XI—XII əsrlərdən) erməniləşmə prosesi başlandı. Hal-hazırda Qarabağın yuxarı hissəsində yaşayan ermənilərin üçüncü qolunu, məhz həmin bu XI—XII əsrlərdən erməniləşmə prosesinə mə'ruz qalmış albanlar təşkil edir.

Qarabağın yuxarı hissəsində erməni dilli yazıların yayılması da məhz yuxarıda təsvir etdiyimiz hadisə olmuşdur. Lakin buna baxmayaraq İ. P. Petruşevski, İ. O. Orbeli, N. Y. Marr, T. Ter-Qriqoryan, M. Barxudaryan və bir çox digər Qarabağda tədqiqat aparmış alimlər haqlı olaraq Qarabağın dağlıq hissəsini Albaniyanın—Azərbaycanın ayrılmaz hissəsi hesab etmişlər. Müasir erməni tədqiqatçılarından fərqli olaraq V əsrdən XIX əsrə kimi bütün erməni tarixçiləri obyektiv olaraq Qarabağın Alban ərazisi olduğunu, buradakı mədəniyyətin albanlara məxsus olduğunu dönə-dönə qeyd etmişlər.

[1] Hər iki məktub Alban tarixçisi Moisey Kalankatlının «Alban tarixi» əsərindən götürülmüşdür. Bax: əsərin Yerevan nəşri, 1984, səh. 149.

## Son söz əvəzi

Heç şübhəsiz oxucuları Qarabağın sonrakı taleyi daha çox maraqlandırır. Bunu nəzərə alaraq göstərmək istəyirəm ki, Qarabağ həmişə olduğu kimi sonrakı dövrlərdə də Azərbaycan feodal dövlətlərinin tərkibində olmuşdur.

Yuxarıda göstərmişdik ki, Qarabağın dağlıq hissəsində X—XI əsrdən Xaçın feodal hökmdarlığı yaranmış və XIII əsrdə özünün çiçəklənmə dövrünə qədəm qoymuşdur. Ancaq Qarabağın düzən hissəsi ilə dağlıq hissəsini bir-birindən ayıran və beləliklə də hər iki eyni xalqın biri-birindən özgələşməsinə səbəb olan bir neçə amillər vardır. Onlardan biri bu idi ki, əgər bütün Azərbaycan kimi Qarabağın düzən hissəsi islamlaşmaya mə'ruz qalırdısa, dağlıq hissənin əhalisinin böyük qismi qriqorianlaşmağa mə'ruz qalırdı. Bununla əlaqədar olaraq əgər Qarabağın düzən hissəsində ərəb qrafikalı epiqrafik abidələr yayılırdısa, dağlıq hissədə erməni-qriqorian dilli epiqrafik abidələr özünə yer tuturdu. Bu proses əsasən X—XI əsrlərdən təşəkkül tapmağa başlamışdır. Bütün bunlar Qarabağın düzən hissəsində islam, dağlıq hissəsində isə xristian adət-ən'ənələrinin, bu dinlərin məfkurəsinin formalaşmasına səbəb oldu. Lakin dini ayrılıq heç də iqtisadi və siyasi ayrılıq deyildir. Heç bir vaxt siyasi və iqtisadi cəhətdən Qarabağın düzən və dağlıq hissəsi bir-birindən ayrı düşməmişdir.

Misal üçün, Qarabağın hər iki hissəsi Azərbaycan feodal dövlətlərinin, o cümlədən Albaniyanın, Girdiman, Şəddadi, Atabəylər, Hülakülər, Qaraqoyunlu dövlətlərinin, sonra isə Qarabağ xanlığının tərkibində olmuşdur.

XIX əsrin lap əvvəllərində isə bütün Azərbaycanla birlikdə Qarabağ da rus çarizmi tərəfindən işğal olunmuşdur.

Onu da deyim ki, rus çarizmi «parçala hökmranlıq et» siyasətini yeridərək hələ VIII əsrdən Qarabağ xanlığını parçalamaq, burada kiçik erməni-xristian dövləti yaratmaq istəyirdi. 19 may 1783-cü ildə knyaz Q. A. Potyomkin II Yekaterinaya yazmışdır ki, «Fürsət düşən kimi Qarabağda hakimiyyəti ermənilərə verəcək və bunlar vasitəsilə Asiyada xristian dövləti yaradacağımız barədə erməni məliklərinə göstəriş vermişəm» (bax: XVIII əsrin I yarısında erməni-rus münasibətləri, II cild, II hissə, Yerevan, 1967, səh. 204—205).

Lakin ruslar buna nail ola bilmədilər, daha doğrusu bütünlükdə bu ərazilər, «ruslarınkı» olduğundan, ayrıca dövlət yaratmağı lazım bilmədilər.

1917-ci ildə çar Rusiyası devrildikdən sonra erməni milli şovinistlərinin Dağlıq Qarabağı Ermənistanda birləşdirmək uğrunda yeni kompaniyası başlandı. Bu dövrdə yüzlərlə erməni ziyalıları Yerevandan Qarabağa gələrək yerli əhali arasında azərbaycanlılar əleyhinə təbliğat aparır, hər vəchlə bu ərazinin Ermənistana qatılması uğrunda siyasi münaqişələri qızışdırırdılar.

1918-ci ilin 22 iyununda erməni ekstremistlərinin təhriki ilə Şuşada Qarabağ ermənilərinin I qurultayı çağırıldı. Burada Qarabağ müstəqil qurum e'lan edildi və onun milli şurası seçildi. Lakin bu da Yerevan ermənilərini tə'min etmədi.

Onlar çalışırdılar ki, Qarabağ Ermənistana qatılsın. 1920-ci ilin may ayının əvvəlində Dağlıq Qarabağ ermənilərinin IX qurultayı çağırıldı. Xalqın rə'yi soruşulmadan bir qrup erməni Qarabağın dağlıq hissəsinin Ermənistana qatılması haqqında qətnamə çıxardı. Lakin bu Qarabağdakı erməni əhalisinin heç də əksəriyyətinin iradəsini əhatə etmirdi. Ona görə də 1921-ci ilin ortalarında Yerevandan gəlmə ermənilər hər vəchlə Qarabağ ermənilərini qorxuzmasına baxmayaraq Qarabağ əhalisinin Ermənistana və ya Azərbaycana qatılması haqqında fikri öyrənilirdi. Məhz bu fikir əsasında Qarabağın dağlıq hissəsinin əhalisi öz dədə-baba elinə—Azərbaycana pənah gətirdi və birdəfəlik öz taleyini Azərbaycan xalqı ilə bağladı. Bu istək 5 iyul 1921-ci ildə «Qafqaz bürosu»nun qərarı ilə rəsmiləşdirildi.

Sovet imperiyası dağıldıqdan sonra isə tarixi həqiqətin özləri tərəfində olmadığını görən ermənilər dünyada ən mənfur bir yola, silah yoluna əl atdılar. Budur, artıq illərdir ki, erməni millətçilərinin günahı üzündən Qarabağda qan axıdılır. Lakin xalqımız bir həqiqəti bilir, yə'ni əvvəlki bütün əsrlərdə olduğu kimi indi də erməni faşistləri məğlub olacaq, bəşəriyyətin ən gözəl güşələrindən biri olan Qarabağ yaxın vaxtda xalqımızın şadlıq-sevinc məskəni olacaqdır.

Lakin xalqıma «Qur'ani-Kərimdən» götürülmüş bir kəlamı bir daha xatırlatmaq istəyirəm: «Şeytan Sizə düşməndir, onu düşmən də bilin».

Rəşid Bahadır oğlu Göyüşov
Qarabağın keçmişinə səyahət
Bakı – Azərnəşr – 1993

Bədii redaktoru: *T. Məlikov*
Texniki redaktoru: *S. Şahbazova*
Korrektorları: *Z.Məmmədova, V. Musayeva.*

ИБ №5767

Yığılmağa verilmiş 8.01.93. Çapa imzalanmış
30.06.93. Formatı 70x108 1/32. Mətbəə kağızı 2.
Yüksək çap üsulu. Ədəbi qarnitur. Şərti çap
vərəqi 3,67. Şərti rəngli surəti 3,94. Uçot nəşr
vərəqi 3,5. Tirajı 14.000. Sifariş 3.
Azərbaycan Respublikası Dövlət Mətbuat Komitəsi.
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – 370005.
Hüsü Hacıyev küç. № 4.
3 №-li Bakı kitab mətbəəsi.
Bakı, Əli Tağızadə küçəsi, № 4.

Государственный комитет Азербайджанской Республики по печати.
Азербайджанское государственное издательство
«Азернешр». Баку – 370005, ул. Гуси Гаджиева, 4.
Бакинская книжная типография № 3.
Баку, ул. А. Таги-заде, 4.